## Ukraynada Azərbaycan əsilli əsgər həlak olub



**Ukraynada gedən müharibədə Azərbaycan əsilli əsgər həlak olub.**

Bu barədə Ukraynanın Azərbaycandakı səfiri Vladislav Kanevski "Facebook"da bildirib.

"Kərim M2 telekanalında aparıcı kimi tanınırdı. Kərim Rusiyanın genişmiqyaslı işğalının ilk günündən son nəfəsinə qədər qoruduğu vətənini müdafiə etmək üçün ayağa qalxmışdı...", - ukraynalı diplomat qeyd edib.



## Ərdoğan Finlandiya və İsveçə xəbərdarlıq edib

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Finlandiya və İsveçə xəbərdarlıq edib.**

APA xəbər verir ki, Ərdoğan deyib ki, yuxarıda adıçəkilən ölkələr tərəfindən NATO-ya üzvlük prosesi çərçivəsində lazımi addımlar atılmasa, prosesi dayandıracaqlar.


№ 124 (5646), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 19 iyul 2022-ci il (çərşənbə axşamı)




## Onlar üçün sosial plan hazırlanıb

### Suriya və İraqdan gətirilən daha 12 şəxs sosial reabilitasiyaya cəlb edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi İraq və Suriyadan Vətənə qaytarılan şəxslərin (repatriant) sosial re-inteqrasiyası və sosial-reabilitasiyası tədbirlərini davam etdirir.**

Nazirlikdən verilən xəbərə görə, artıq Suriya və İraqdan ölkəyə gətirilən daha 10 repatriant uşaq və 2 ana yaşadıqları ailədə Agentliyin sosial işçiləri tərəfindən təfsilatlı qiymətləndirilib və onlar üçün sosial reabilitasiya planı hazırlanıb.

Psixoloqlar tərəfindən ilkin sosial-psixoloji yardım xidməti zamanı hər bir şəxslə ayrıca psixoloji qiymətləndirmə həyata keçirilib, travma sonrası müşahidə olunan əlamətlərin kəskinliyi qiymətləndirilib. Repatriasiya olunmuş şəxslər və onların ailə üzvləri ilə sosial-psixoloji dəstək üzrə xüsusi əhəmiyyət daşıyan reabilitasiya işi davam etdirilir.

Bu ilin ilk 6 ayında Sosial Xidmətlər Agentliyinin psixoloqları tərəfindən ümumilikdə 11 rayon üzrə 105 repatriasiya olunmuş şəxs sosial reabilitasiya və re-inteqrasiya işinə cəlb edilib. Ümumilikdə isə ölkə üzrə 146 ailədə 378 repatriantla iş aparılır.



## Ceyhun Bayramov NATO-nun baş katibi ilə görüşəcək

### Alyansla qarşılıqlı müzakirə Azərbaycanın xeyrinədir

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov və NATO-nun Baş katibi Yens Stoltenberq arasında görüş olacaq. Bu barədə NATO-nun mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, görüş sabah (bu gün) Belçikanın paytaxtı Brüsseldə, NATO-nun mənzil-qərargahında keçiriləcək.**

*Baş tutacaq görüşlə bağlı gözləntilərini "Şərq"lə bölüşən siyasi şərhçi Turab Rzayev bildirib ki, görüşün rutin ziyarət məqsədli olacağını düşünür:* "Amma son dövrlərdə baş verən bəzi hadisələri, xüsusilə, iki məsələni nəzərə alsaq, görüşün əhəmiyyəti arta bilər.

(səh.2)

## Data jurnalistikasının inkişaf etdirilməsi planlaşdırılır

### Beynəlxalq ekspertlərin Azərbaycana cəlb edilməsi nəzərdə tutulub



**Azərbaycanda data jurnalistikasının inkişaf etdirilməsi planlaşdırılır.**

Bunu Şuşada jurnalistlər üçün keçirilən təlimdə Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov deyib.

Onun sözlərinə görə, artıq media nümayəndələrinin biliklərinin daha da inkişaf etdirilməsi üçün konkret istiqamətlər müəyyən edilib və bu məqsədlə beynəlxalq ekspertlərin Azərbaycana cəlb edilməsi nəzərdə tutulub.

"Hesab edirik ki, informasiya axınının çox böyük olduğu indiki şəraitdə jurnalist kimi işləmək kifayət qədər çətindir. Jurnalistlərin bacarıqlarını inkişaf etdirmək üçün əsas məqsəd data jurnalistikasını təbliğ etməkdir", - Ə.İsmayılov bildirib.

# Gələcəyin yol xəritəsi çəkildi

### Azərbaycanla Avropa İttifaqı arasında imzalanan yeni saziş bölgənin təhlükəsizliyi üçün qoruyucu qalxan olacaq



Anlaşma eyni zamanda Azərbaycanın iqtisadi vəziyyətinə də müsbət təsir göstərəcək, qaz gəlirləri artacaq

**Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb.**

Sənədi Prezident İlham Əliyev və ölkəmizdə səfərdə olan Avropa Komissiyasının rəhbəri xanım Ursula von der Leyen imzalayıblar. Memoranduma əsasən, 2027-ci ilə qədər illik qaz ixracının 20 milyard kubmetrə çatdırılması gözlənilir.

(səh.3)

## Yoluxma sayında kəskin artım müşahidə olunur

### Qapalı məkanlarda və metroda tibbi maskadan istifadə vacibdir



**Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, ötən həftə ərzində qlobal olaraq koronavirus (COVID-19) infeksiyasına yoluxma halları artmaqdadır.**

Bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıb.

(səh.3)



## Bakıda 25 nəfəri gün vurub

**Yay mövsümü başlayandan günvurma ilə bağlı olaraq TƏBİB-in tabeliyində olan Bakı Şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına 25 nəfər müraciət edib.**

Bu barədə TƏBİB-dən APA-nın sorğusuna cavab olaraq bildirilib. Qeyd edilib ki, onlardan 17 nəfəri hospitalizasiya edilib, 8 nəfərə yerində yardım göstərilib.

*Müraciət edənlərdən 19-u böyük, 6-sı uşaq olub.*

## Ölən yoxdur

### Daha 68 nəfər COVID-19-a yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 68 yeni yoluxma faktı qeydə alınıb, 34 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 794 656 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 784 032 nəfər müalicə olunaraq sağalıb, 9723 nəfər vəfat edib, aktiv xəstə sayı 901 nəfərdir.

*Ölkədə son sutka ərzində 1840, hazırkı dövrədək isə 7 004 415 test aparılıb.*

## Cəlilabad sakini intihar edib



**Cəlilabad rayonunda intihar hadisəsi baş verib.**

"Report"un Muğan bürosunun məlumatına görə, hadisə rayonun Uzuntəpə kəndində qeydə alınıb.

Belə ki, rayon sakini, 2000-ci il təvəllüdlü S.Əzizov özünü asaraq intihar edib. İntiharın səbəbləri hələlik məlum deyil.

Faktla bağlı araşdırma aparılır.



## Ermənistan yenə odla oynayır

### İşğalçılıq siyasətinə istənilən an cavab veriləcək

(səh.3)

## Nazirlərin Tbilisi görüşündə gözlənilən nəticə olmadı

### Asif Nərimanlı: "Bakı bundan sonra iki istiqamətdə hərəkət edə bilər"

(səh.4)



# Şahin Bağırov işə başladı

## Samir Nuriyev DGK sədri vəzifəsinin icraçısını komitənin kollektivinə təqdim edib



**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Samir Nuriyev Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini vəzifəsinə təyin olunmuş, DGK-nın sədri vəzifəsi həvalə edilmiş Şahin Bağırovu komitənin kollektivinə təqdim edib.**

Samir Nuriyev Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında dövlət idarəetməsinin bütün sahələrində köklü islahatların aparıldığını vurğulayıb.

Qeyd edib ki, islahatların əsas məqsədi idarəetməni daha da təkmilləşdirmək, dövlət orqanlarının fəaliyyətində şəffaflığa nail olmaq və vətəndaş məmnunluğunu təmin etməkdən ibarətdir. Samir Nuriyev dövlətimizin başçısının gömrük orqanlarının qarşısına qoyulmuş vəzifələrin icrası ilə bağlı tapşırıqlarını kollektivin diqqətinə çatdırıb.

Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, Dövlət Gömrük Komitəsi sədrinin vəzifələrini icra edən Şahin Bağırov göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlığını ifadə edib. Şahin Bağırov gömrük xidmətində çalışan həmkarları ilə birlikdə dövlətimizin başçısının etimadını doğrultmaq üçün bütün imkanlarını səfərbər edəcəyini və gömrük orqanlarının fəaliyyətində keyfiyyət dəyişikliyinə nail olmaqdan ötrü səylə çalışacağını vurğulayıb.

# Ceyhun Bayramov NATO-nun baş katibi ilə görüşəcək

## Alyansla qarşılıqlı müzakirə Azərbaycanın xeyrinədir



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov və NATO-nun Baş katibi Yens Stoltenberq arasında görüş olacaq. Bu barədə NATO-nun mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, görüş sabah (bu gün) Belçikanın paytaxtı Brüsseldə, NATO-nun mənzil-qərargahında keçiriləcək.**

*Baş tutacaq görüşlə bağlı gözləntilərini "Şərq"lə bölüşən siyasi şərhçi Turab Rzayev bildirib ki, görüşün rutin ziyarət məqsədli olacağını düşünür:* "Amma son dövrlərdə baş verən bəzi hadisələri, xüsusilə, iki məsələni nəzərə alsaq, görüşün əhəmiyyəti artıq bilər. Birincisi, Prezident İlham Əliyevin Ursula fon der Lyayeni Bakıda qəbul etməsi ilə bağlıdır. Bunun nəticəsində Avropa İttifaqı ilə qaz ixracı ilə bağlı enerji müqaviləsi imzalandı. İkinci məsələ isə Azərbaycanın erməni silahlı birləşmələrinin rus sülhməramlılarının nəzarəti altından çıxarılması tələbi ilə əlaqədardır. Hər iki hal Rusiyanı kifayət qədər qıcıqlandıracaq məsələlərdir. Rusiya tərəfi iyun ayının sonuna qədər erməni silahlı birləşmələrinin Qarabağdan çıxarılmasına söz vermişdi. Amma bunu yerinə yetirməyiblər, ölkə başçısı da bunu açıq şəkildə bildirdi".

*T.Rzayev vurğulayıb ki, NATO ilə qarşılıqlı müzakirə istənilən halda Azərbaycanın xeyrinədir:* "Azərbaycan son illərdə özünü NATO ilə müəyyən məsələlərdə ortaq kimi aparır. Qarabağ müharibəsində NATO-nun Azərbaycan əleyhinə heç bir qərar verməməsi, Azərbaycan və Türk ordusunun Kabil hava limanını mühafizə etməsindən sonra Stoltenberqin təşəkkür etməsi və başqa məsələlər Azərbaycanla NATO arasında münasibətlərin artan xətt üzrə inkişafını göstərir. Bu görüş regionda və dünyada qütbləşmənin və müharibə təhlükəsinin artdığı bir vaxtda Azərbaycan üçün müsbət dəyərləndirilə bilər".

**Çimnaz Şahlar**

# Azərbaycanla Avropa İttifaqının gündəliyi olduqca genişdir

## Prezident İlham Əliyev: "Enerji təhlükəsizliyi bu gün hər zamankından daha önəmlidir"

**"Azərbaycanın irəli sürdüyü və Aİ-nin dəstəklədiyi layihələr Avropanın enerji xəritəsini tamamilə dəyişib". Bunu Azərbaycan Prezidenti İlham Əliyev Avropa Komissiyasının Prezidenti Ursula von der Leyenlə mətbuata birgə açıqlamasında deyib. Dövlət başçısı qeyd edib ki, enerji sahəsində bizim fəal əməkdaşlığımızın 15 ildən çox tarixi var:**

"Bugünkü memorandum bizim aramızda imzalanmış ilk sənəd deyil. Biz 2006-cı ildə Anlaşma Memorandumu və 2011-ci ildə Cənub Qaz Dəhlizi ilə bağlı birgə bəyanat imzalamışıq. Beləliklə, bizim yaxşı tariximiz və yaxşı nailiyyətlərimiz var. Azərbaycanın irəli sürdüyü və Aİ tərəfindən dəstəklənən, bizim tərəfdaşlarımız tərəfindən dəstəklənən enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişib".



**"Biz artıq bu əməkdaşlığın müsbət faydalarını görürük"**

**Prezident bildirib ki, enerji təhlükəsizliyi bu gün hər zamankından daha önəmlidir:** "Biz artıq bu əməkdaşlığın müsbət faydalarını görürük. Enerji təhlükəsizliyi məsələləri bu gün hər zamankından daha önəmlidir. Aİ və Azərbaycan arasında enerji sahəsində uzunmüddətli, proqnozlaşdırıla bilən və çox etibarlı əməkdaşlıq təbii ki, böyük bir aktivdir. Bu il biz Aİ və Azərbaycan arasında neft və qaz, alternativ enerji, su enerjisi səmərəliliyi və digər məsələlər də daxil olmaqla, bir çox sahələri əhatə edən enerji dialoquna başladıq".

**"Bizim həqiqətən də nəhəng resurs bazamız var"**

**Ölkə rəhbəri bəyan edib ki, Azərbaycanda alternativ enerji istehsalının böyük potensialı artıq Avropa İttifaqı tərəfindən də təqdir edilir:** "Biz artıq öz potensialımıza dair ilkin qiymətləndirmə aparmışıq və mən deyə bilərəm ki, Qarabağın və Şərqi Zəngəzurun azad edilmiş ərazilərində günəş və külək enerjisi potensiyalarının potensialı 9200 meqavatdır. Xəzər dənizinin külək enerjisi potensialı 157 geqavatdır. Beləliklə, bizim həqiqətən də nəhəng resurs bazamız var".

**"Aİ Azərbaycan üçün əsas ticarət tərəfdaşıdır"**

**Dövlət başçısı deyib ki, Azərbaycan və Aİ arasında imzalanacaq yeni razılaşma üzərində iş qarşıdakı aylarda tamamlana bilər:** "Əlbəttə, bizim gündəliyimiz olduqca genişdir. Biz Aİ və Azərbaycan arasında yeni razılaşma üzərində işləyirik. Biz bunu xanım Prezidentlə müzakirə etdik və ümidvaram ki, qarşıdakı aylarda bunu tamamlaya biləcik. Əlbəttə, bu, bizim ikitərəfli əməkdaşlığımıza vacib töhfə olardı". Prezident vurğulayıb ki, Aİ Azərbaycan üçün əsas ticarət tərəfdaşıdır: "Planlarımızın həyata keçirilməsi əlbəttə ki, ümumi dövriyyəni xalqlarımızın xeyrinə artıracaq. Aİ ilə Azərbaycan arasında əlaqələrin əminəm ki, böyük gələcəyi olacaq və biz bütün planlaşdırdıqlarımıza nail olacağıq".

**"Ümid edirəm ki, Azərbaycanla yeni saziş üzərində işi tezliklə tamamlayacağıq"**

**Avropa Komissiyasının prezidenti Ursula von der Leyen deyib ki, Azərbaycanla yeni saziş üzərində işi tezliklə tamamlayacağıq:** "Enerji sahəsində əməkdaşlıqdan əlavə biz Prezident İlham Əliyevlə Aİ və Azərbaycan arasında geniş miqyaslı əməkdaşlığı müzakirə etdik. Sabah Brüsseldə Aİ-Azərbaycan Əməkdaşlıq Şurasının iclası baş tutacaq və burada ikitərəfli münasibətlərin inkişafı müzakirə olunacaq. Biz hazırda yeni ikitərəfli saziş üzərində işləyirik və ümid edirəm ki, biz onu tezliklə tamamlayacağıq. Məqsəd odur ki, bizim mövcud olan güclü əməkdaşlığımızı daha da möhkəmləndirək. Azərbaycanın ən böyük ticarət tərəfdaşı Avropa İttifaqıdır. Həmçinin Aİ Azərbaycana ən çox investisiya qoyan aktordur və biz bunu genişləndirmək istəyirik". Ursula von der Leyen qeyd edib ki, İqtisadiyyat və İnvestisiya Planı çərçivəsində 2 milyard avro Azərbaycana cəlb olunur: "25 min azərbaycanlı kiçik və orta sahibkara dəstək, Bakı Limanının dayanıqlı haba çevrilməsi istiqamətində işlər görülür ki, bu, bizim üçün vacibdir. Çünki bu, əlaqələnmə ilə bağlıdır. Biz həmçinin xalqlarımızı bir-birinə necə yaxınlaşdırmağı müzakirə etdik. Aİ Mərkəzi Asiya və onun hüdudlarından kənarda əlaqələr qurmaq üçün Azərbaycanla işləmək istəyir. Ona görə də biz Trans-Xəzər əlaqələnməsi ilə bağlı müzakirələri yaxından izləyirik və maraqlanırıq.

**"Azərbaycan bizim üçün çox vacib enerji tərəfdaşıdır və həmişə etibarlı olub"**

**Von der Leyen deyib ki, Azərbaycan bizim üçün çox vacib enerji tərəfdaşıdır və həmişə etibarlı olub.** O bildirib ki, Rusiyanın Ukraynaya qarşı başladığı işğal müharibəsindən əvvəl belə Rusiya etibarlı enerji tərəfdaşı deyildi: "Buna görə də Aİ Rusiyadan əlavə enerji mənbələrinin diversifikasiyasına yönəldi, daha etibarlı və güvənilir tərəfdaşlarla işləməyə başladı. Azərbaycanın bizim güvəndiyimiz tərəfdaşlar arasında olmasına şadam. Siz bizim üçün çox vacib enerji tərəfdaşısınız və həmişə etibarlı olmusunuz".

**İsmayıl**

# Rusiya imzasına hörmət etməlidir

## "Ermənistanın razılaşmalardan müxtəlif bəhanələrlə yayınmağa çalışması, əlavə vaxt udmağa cəhd göstərməsi göz qabağındadır"



**10 noyabr razılaşmasının altında üç ölkənin - Azərbaycan, Ermənistan və Rusiyanın dövlət və hökumət başçılarının imzası var. Azərbaycan öz imzasına hörmətlə yanaşan tərəf kimi və qalib ölkə kimi sözügedən razılaşmanın bütün şərtlərinə tam məsuliyyətlə və dəqiqliklə əməl edir. Ancaq eyni sözü əfsuslar olsun ki, 10 noyabr razılaşmasının digər subyektləri barədə söyləmək hələlik mümkün deyil.**

Nə qarantor, zəmanətçi və vasitəçi ölkə kimi Rusiya, nə də 44 günlük müharibənin məğlub tərəfi kimi Ermənistan rəhbərliyi öz üzərlərinə götürdükləri öhdəlikləri vaxtında və gərəkən tərzdə yerinə yetirir. Bu isə rəsmi Bakını əsla qane etmir. İndiyə qədər təmkin nümayiş etdirən və sözügedən razılaşmanın bəndlərinə tərəflərin hər birinin əməl etməsinin vacibliyini diplomatik nəzakət ritorikası ilə İrəvanın və Moskvanın diqqətinə çatdıran Azərbaycan tərəfinin günün birində sərt və tələbkar mövqeyini ortaya qoyacağı gözlənilən idi. İyulun 15-də 2022-ci ilin ilk altı ayının yekunlarına həsr olunan müşavirədə Prezidenti İlham Əliyevin çıxışında səslənməndirdiyi bəzi fikirlərə məhz bu kontekstdən yanaşmalıyıq. Çıxışı zamanı olduqca aktual məsələlərə toxunan dövlət başçısı Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması naminə bir tərəfdən sülhə çağırış, digər tərəfdən isə Paşinyan iqtidarına açıq xəbərdarlıq edərək Azərbaycanın "qırmızı cizgi"lərini ortaya qoydu. Ölkə rəhbəri 10 noyabr bəyanatının icra edilməyən maddələrinin təcili surətdə yerinə yetirilməsinin vacibliyini vurğuladı. Prezident sözügedən bəyanatın 4-cü bəndinin, yəni işğalçı qüvvələrin Azərbaycan ərazilərindən hələ də çıxarılmamasının üzərində xüsusilə dayandı.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov vurğulayıb ki, 44 günlük müharibənin bitməsindən az qala iki il keçməsinə baxmayaraq, məsələnin həllini tapmamasının günahı təkcə Ermənistan tərəfində deyil. Partiya sədrinin sözlərinə görə, Ermənistanın Moskva və Brüsselin vasitəçiliyi ilə əldə edilmiş razılaşmalardan müxtəlif bəhanələrlə yayınmağa çalışması, əlavə vaxt udmağa cəhd göstərməsi göz qabağındadır:** "Ancaq burada əsas məsuliyyət ilk növbədə Rusiyanın üzərinə düşür. Çünki Rusiya həm zəmanətçi, həm də vasitəçi ölkədir.

Rusiya Ermənistanın işğalçı ordusunun qalıqlarının Azərbaycanın Qarabağ ərazisindən çıxarılacağına zəmanət verib və buna imza atıb. Müharibədən sonrakı dönəmdə də Rusiya bu məsələnin tezliklə həll olunacağına söz verib. Həmin vədə əsasən, Rusiya bu ilin may-iyun aylarına qədər bu məsələni artıq tam çözməliydi. Lakin həmişəki kimi Kreml bu dəfə də sözdən o yana bircə addım da atmadı. Bu isə şübhəsiz ki, rəsmi Bakını heç bir halda qane edə bilməz. Azərbaycan İrəvan və Moskvanın imitasiya ilə məşğul olmasına göz yummaq və yenə də uzun illər davam edə biləcək səmərəsiz danışıqlar aparmaq fikrində deyil".

**Ə.Hüseynov bəyan edib ki, Bakı 10 noyabr razılaşmasının şərtlərinin həyata keçirilməsi istiqamətində real addımların atılmasını tələb edir:** "Dövlət başçısı müşavirədə bununla bağlı Bakının qəti mövqeyini ortaya qoydu. Zənnimcə, bu çıxışdan sonra İrəvan və Moskva üçün artıq heç bir bəhanə yeri, hiyləgər manevr imkanları qalmadı. Növbəti bəhanələr və hiylələr yalnız yeni hərbi əməliyyatların başlanması ilə nəticələnə bilər. Bakı bununla bağlı xəbərdarlıq etdi. Dövlət başçısı İlham Əliyev açıq mətnlə bildirdi ki, Azərbaycanla saxta "sülh" oyunları oynamaq olmaz. Ermənistanın sülh istiqamətində addımlardan yayınması, Paşinyanın həmişəki kimi qeyri-konstruktivlik nümayiş etdirməsi və üzərinə götürdüyü öhdəliklərini yerinə yetirməməsi real sülhə deyil, real münaqişə təhlükəsinin yaranmasına xidmət edir. Əgər Ermənistan tərəfi Azərbaycan ərazisindən öz silahlı birləşmələrini çıxarmaq istəmirsə, Zəngəzur dəhlizinin Mehri hissəsində tikiləcək dəmir yolunun texniki-iqtisadi əsaslandırılmasını təqdim etmirsə, onda bütün bunları bizə açıq bildirsin, biz də necə deyərlər, öz işimizi bilək. Daha doğrusu, biz öz işimizi bilirik və nə edəcəyimizi də çox yaxşı bilirik. Lakin Ermənistanın məsuliyyətsiz revanşist qüvvələrindən fərqli olaraq rəsmi Bakı yeni müharibə tərəfdarı deyil. Biz hər şeyi hərbi məcburetmə yoluyla çözməyə çalışmırıq. Azərbaycan qalib tərəf olsa da, amma zora yox, sağlam təfəkkürə, rasional siyasətə üstünlük verir. İrəvan və Moskva da rasional siyasət yürütməyə, öhdəliklərə əməl etməyə borcludur".

**İsmayıl Qocayev**

**Azərbaycan postmüharibə dövründə bütün çağırışlara hazırlıqlı olduğunu nümayiş etdirir. 2022-ci ilin altı ayının nəticələri və göstəriciləri də bu reallığı təsdiqləyir. Sosial-iqtisadi inkişafın davam etməsi, ölkənin beynəlxalq nüfuzunun artması, dünya siyasətində mövqeyinin möhkəmlənməsi Azərbaycanın regional güc mərkəzi kimi strateji hədəflərə əmin addımlarla irəlilədiyini göstərir.**



# Azərbaycan hər zaman müharibəyə hazırdır

## "Dövlət başçısının ünvanladığı mesajlar ümid edirəm ki, qarşı tərəfi düşündürəcək"

Prezident İlham Əliyev cari ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə mühüm mesajlar verdi. Dövlət başçısı sosial-iqtisadi inkişaf, strateji diplomatiya siyasəti, regional təhlükəsizlik, postmüharibə dövrünün quruculuq prosesi, "Böyük Qayıdış" və digər məsələlər haqqında önəmli nüanslara diqqət yetirdi. Ölkə rəhbərinin mühüm bəyanlarından biri də Ermənistana xəbərdarlıq mesajları ünvanlaması idi. Dövlət başçısı bir daha vurğuladı ki, erməni silahlı birləşmələrinin Azərbaycan ərazisində qalması tamamilə qəbuledilməzdir. Prezident müharibədən 1 il 8 ay ötməsinə baxmayaraq, mənfi məqamların müsbət məqamlardan daha çox olduğunu dedi: "10 noyabr Bəyannaməsi faktiki olaraq Ermənistanın kapitulyasiya aktıdır və müharibədə məğlub edilmiş tərəf kimi Ermənistan öz üzərinə öhdəliklər götürüb. Bu öhdəliklər orada açıq-aydın göstərilir. Onlardan biri erməni silahlı qüvvələrinin Qarabağdan çıxarılmasıdır. Bu günə qədər bu məsələ öz həllini tapmayıb. Biz dəfələrlə məsələ qaldırmışıq, ancaq Ermənistan bunu uzadır. Eyni zamanda, biz Rusiyanın hərbi rəhbərliyi qarşısında bu məsələni qaldırmışdıq və bir neçə ay bundan əvvəl Rusiyanın Müdafiə Nazirliyinin yüksəkvəzifəli şəxsi Azərbaycana səfərdə olarkən bizim Müdafiə Nazirliyinə söz vermişdi ki, iyun ayına qədər erməni silahlı birləşmələri Qarabağdan çıxarılacaq. Ancaq bu gün artıq iyulun ortasıdır, bu məsələ öz həllini tapmayıb. Ermənistan 10 noyabr Bəyannaməsinə zidd olaraq bu öhdəliyi yerinə yetirmir. Rusiya sülhməramlıları - Rusiya tərəfi də 10 noyabr Bəyannaməsini imzalayıb - necə deyərlər, onları buna məcbur etmir. Əlbəttə ki, bu, dözülməz vəziyyətdir. Çünki erməni silahlı birləşmələrinin Azərbaycan ərazisində qalması tamamilə qəbuledilməzdir. Biz qalib ölkəyik, biz öz ərazi bütövlüyümüzü bərpa etmişik. Əgər Ermənistan Azərbaycan ərazisindən öz silahlı birləşmələrini çıxarmaq istəmirsə, onda bizə bunu açıq desin, biz də işimizi bilək. Bizim cavabımız nə olacaq? Onu bəlkə də indi demək yersizdir. Ancaq bu, 10 noyabr Bəyannaməsinin kobudcasına pozulması deməkdir".

**Millət vəkili Azər Badamov "Şərq"ə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirədə Ermənistanın icra etməli olduğu və öhdəsinə götürdüyü məsələlərə bir daha geniş toxunuldu. Deputat bildirib ki, müşavirədə qarşı tərəfə çox ciddi mesajlar ünvanlandı:** "Ermənistan 10 noyabrda imzalanmış üçtərəfli bəyanatın tələblərini icra etmir. Bəyanata imza atmış Rusiya da Ermənistana kapitulyasiya sənədinə imza atarkən qəbul etdiyi öhdəliklərin icra edilməsinə görə heç bir təzyiq göstərmir. Ermənistan rəhbərliyi təqdim etdiyimiz bütün məsələləri sözdə qəbul etdiyini bildirsə də, əməldə heç bir dəyişiklik görünmür. 10 noyabrda imzalanmış üçtərəfli bəyanata əsasən erməni hərbi birləşmələri ölkəmizin ərazisindən çıxarılmalıdır. Həm də Zəngəzur dəhlizi açılmalı və sutkanın 24 saatı Naxçıvanla maneəsiz əlaqəmizi təmin etməlidir. Lakin İrəvan bu öhdəliyini yerinə yetirmir". Parlament üzvü bəyan edib ki, Azərbaycan məsuliyyətli ölkə olaraq bütün məsələlərə ciddi riayət edir: "Üçtərəfli bəyanat imzalanan ilk gündən ermənilər Laçın dəhlizi vasitəsilə sərbəst hərəkət edirlər. Cənab Prezident qarşı tərəflərə bildirdi ki, əgər Zəngəzur dəhlizi tezliklə açılmazsa, Laçın dəhlizini də bağlaya bilərik. Digər yandan vurğulandı ki, erməni hərbi birləşmələri ərazimizdən çıxarılmazsa, biz anti-terror əməliyyatları apara və ərazimizi erməni hərbiçilərdən təmizləyə bilərik. Ölkə başçımız bir daha vurğuladı ki, "biz müharibə istəmirik və bütün məsələlərin danışıqlar yolu ilə həll olunmasını istəyirik". Bununla yanaşı biz ordumuzu daha da modernləşdirərək gücləndiririk. Dövlət başçısı əgər məsələlər danışıqlar yolu ilə həll olunmazsa, yenidən müharibəyə hazır olduğumuzu bildirdi. Cənab Prezidentin çıxışları qarşı tərəflərdə diqqətlə izlənilir. Hesab edirəm ki, ölkə başçımızın ünvanladığı mesajlar qarşı tərəfi düşündürəcək və danışıqlar yolu ilə razılaşdırılmış məsələnin həll olunmasına hərəkətə keçəcəklər".

**İsmayıl Qocayev**



# Gələcəyin yol xəritəsi çəkildi

## Azərbaycanla Avropa İttifaqı arasında imzalanan yeni saziş bölgənin təhlükəsizliyi üçün qoruyucu qalxan olacaq

İsmayıl Qocayev

**Azərbaycan ilə Avropa İttifaqı arasında ”Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu” imzalanıb.**

Sənədi Prezident İlham Əliyev və ölkəmizdə səfərdə olan Avropa Komissiyasının rəhbəri xanım Ursula von der Leyen imzalayıblar. Memoranduma əsasən, 2027-ci ilə qədər illik qaz ixracının 20 milyard kubmetrə çatdırılması gözlənilir. Prezident İlham Əliyev deyib ki, Aİ ilə bu gün imzalanan memorandum gələcək üçün yol xəritəsidir. Dövlət başçısının sözlərinə görə, qarşıdakı illərdə yeni qaz yataqlarının istismarı təbii qaz istehsalını artıracaq və alternativ enerjinin istifadəsi daha çox təbii qaz ixracına imkan verəcək: ”Bizim daha əvvəl planlaşdırdıqlarımızın hamısını həyata keçirdiyimizi nəzərə alsaq, əminəm ki, biz böyük uğur görəcəyik. Bizim bu gün müzakirə etdiyimiz digər məsələlər arasında kommunikasiya, əlaqə də var idi. Azərbaycanın coğrafi mövqeyini və modern nəqliyyat infrastrukturunu nəzərə alsaq, bizim potensialımızın əlaqələndirilməsi istiqamətində daha fəal işləməyimizə ehtiyac var. Çünki burada, Xəzərin qərb sahilində Azərbaycan Xəzərdə ən böyük ticarət donanmasına, modern infrastruktura, gəmiqayırma zavoduna, yeni dəniz limanına və bizi bütün qonşularımızla əlaqələndirən dəmir yoluna malikdir”.

Avropa Komissiyasının prezidenti xanım Ursula von der Leyen də bildirib ki, Azərbaycanla imzaladığımız sənəd enerji sahəsində əməkdaşlığımızı daha da gücləndirəcək: ”Siz yalnız bizim enerji təhlükəsizliyimiz üçün deyil, həmçinin ”yaşıl enerji” sahəsində də etibarlı tərəfdaşsınız. İmzaladığımız bu sənəd enerji sahəsində əməkdaşlığımızı daha da gücləndirəcək”. O, memorandumun 3 əsas bəndini qeyd edib: ”İlkin olaraq biz Azərbaycandan qaz ixracını iki dəfə artıracağıq. Bu sənəd vasitəsilə Cənub Qaz Dəhlizinin genişləndirilməsinə sadiqliyimizi ifadə edirik. Bu layihə artıq Aİ üçün çox önəmlidir. Hər il ərzində 8 milyard kub metr qazı Avropaya ötürürük, yaxın illərdə onun həcmini 20 milyard kub metrə çatdıracağıq. Gələn il həcmi 12 milyard kub metrə çatdıracağıq və bu, Rusiyadan kəsilən qazı kompensasiya etməyə və Avropanın enerji təminatına əhəmiyyətli töhfə verəcək”. Anlaşma Memorandumunda ikinci əsas məqamın bərpa olunan enerji ilə bağlı olduğunu vurğulayan Ursula von der Leyen bərpa olunan enerji sahəsində Azərbaycanın çox böyük potensialının olduğunu diqqətə çatdırıb: ”Cənab Prezident də bunu qeyd etdi. Bu, xüsusilə külək və ”yaşıl hidrogen” sahəsində böyükdür və biz bunları görüşümüzdə ətraflı müzakirə etdik. İmzaladığımız bu sənədlə bu sahədə dayanıqlı əməkdaşlığımızın əsasını qoymuş olduq. Tədricən Azərbaycan Aİ üçün qalıq yanacaqlar sahəsində tərəfdaşdan bərpa olunan enerji sahəsində aparıcı tərəfdaşa çevriləcək. Və bizim qaz sahəsində əməkdaşlığımız iqlim dəyişikliyi ilə bağlı məsuliyyətimizlə ardıcıl olmalıdır. Məsələn, metan qazının azaldılması kimi. Bu sənəddə metan qazının azaldılması ilə bağlı öhdəliklərimiz qeyd olunur. Və mən Azərbaycanı təşviq edirəm ki, metan qazından imtina ilə bağlı 119 ölkənin qoşulduğu razılaşmaya da qoşulsun”.

> **Anlaşma eyni zamanda Azərbaycanın iqtisadi vəziyyətinə də müsbət təsir göstərəcək, qaz gəlirləri artacaq**

**İqtisadçı Natiq Cəfərli bildirib ki, Azərbaycanın Aİ ilə yeni enerji sazişi imzalanması, Avropa Komissiyasının sədri Ursula von der Leyenin ölkəmizə səfəri çox önəmli hadisədir. Ekspertə görə, bu saziş təkcə ölkəmizin deyil, bölgəmizin də qorunmasını, önəmini artıracaq. Yarana biləcək münaqişələrin önlənməsinə xidmət edəcək:** ”Cənubi Qafqazda sülhün bərqərar olması və qorunması üçün bu saziş vacib qoruyucu qalxan olacaq. Yeni saziş Azərbaycanın iqtisadi vəziyyətinə də müsbət təsir göstərəcək, qaz gəlirləri artacaq. Bundan başqa iqtisadi olaraq məmləkətin Qərbə bağlantısını möhkəmləndirəcək. Uzun müddətdir ki, Azərbaycan ilə Aİ arasında yeni strateji tərəfdaşlıq müqaviləsi üzərində iş gedir. Hələ 2019-cu ildən bu haqda ictimaiyyətə məlumat vermişdik. Danışıqlar prosesindən məlumatlı şəxslər olaraq məsələnin uzanmasının səbəbinin ”insan haqları” ilə bağlı olmadığını demişdik. Müqavilənin uzanmasının əsas səbəbləri iqtisadi məsələlərdir. Qazla bağlı anlaşma razılaşdırılmamış əsas məsələlərdən biri idi. Qaz anlaşması Aİ ilə geniş müqavilənin də önünü açır. Düşünürəm ki, yaxın zamanlarda Avropa Birliyi ilə yeni strateji müqavilə də imzalanacaq. Bir sözlə, Azərbaycan-Aİ əlaqələrinin genişlənməsi məmləkətimizin strateji dövlət maraqlarına tam uyğundur”.

**Beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli Aİ ilə Azərbaycan arasındakı enerji müqaviləsini bu cür şərh edib:** ”Tarixi müqavilədir, Avropanın xilası müqaviləsidir. Avropa Azərbaycana milyardlarla investisiya qoyacaq. İndiki halda Qarabağda da işlər aparılacaq. Bu, gələcək müqavilələr üçün baza rolunu oynayacaq. İndi artıq başa düşüldü ki, dövlət başçısı İlham Əliyev niyə Özbəkistan, Türkmənistan, Qazaxıstanla strateji tərəfdaşlıq müqavilələri bağlayıb”.

# Ermənistan yenə odla oynayır

## İşğalçılıq siyasətinə istənilən an cavab veriləcək

**İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin altı ayının yekunlarına həsr olunan müşavirə keçirilib. Dövlət başçısı müşavirədəki çıxışı zamanı bir sıra məsələlərə toxunub. Prezident Ermənistanın iddialarından danışarkən, qeyd edib ki, status haqqında danışmaq Ermənistan üçün hesab edirəm ki, çox təhlükəli məsələdir:**



**Tofiq Zülfüqarov:** “Faktiki olaraq Azərbaycan artıq iki il ərzində azad edilmiş ərazilərdə güclənib”

”Son vaxtlar Ermənistan rəhbəri yenə də hansısa status haqqında danışmağa başlayıb. Halbuki, müharibəyə son qoyulanda, Ermənistan kapitulyasiya aktına məcburən imza atanda bizim - Azərbaycan, Rusiya, Ermənistanın rəhbərləri arasında şifahi razılaşma olmuşdur ki, status məsələsinə toxunulmur. Ermənistan müəyyən müddət buna əməl edirdi. Ancaq son zamanlar artıq bu, adi hala çevrilib. Gah onların baş naziri, gah xarici işlər naziri Qarabağın statusundan danışırlar. Status hara gedib və statusla nə olub, mən müharibədən sonra demişəm, təkrarlamaq istəmirəm. Əgər Ermənistanda bunu kimsə unudubsa, təkrarlaya bilərəm. Amma hesab edirəm ki, hələlik buna ehtiyac yoxdur. Ona görə status haqqında danışmaq Ermənistan üçün hesab edirəm ki, çox təhlükəli məsələdir. Çünki biz də status haqqında danışa bilərik, Zəngəzur üçün status tələb edə bilərik. O Zəngəzur ki, 1920-ci ilin noyabrında bizdən qoparıldı. Biz ki, danışmırıq, amma danışa bilərik, baxaq görək nəticəsi nə olacaq. Buna oxşar mənfi məqamlar çoxdur”.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan sabiq XİN başçısı, politoloq Tofiq Zülfüqarov bildirib ki, Ermənistanın niyyəti dəyişməyib:** ”Bu münaqişə tarixən 1920-ci illərdən mövcud olsa da, 1988-ci ildə yenidən alovlanıb. Burada Ermənistanın məqsədi hər zaman eyni - Azərbaycan torpaqlarının Ermənistan ərazisinə anneksiya edilməsi olub. Məğlub olan ölkə artıq kapitulyasiya aktına qol çəkib. Cənab Prezident bunu xüsusilə qeyd edib. Lakin onlar 1 il 8 ay sonra yenidən köhnə siyasəti açıq şəkildə bəyan etməyə başlayıblar. ”Status” məsələsi və başqa mövzuların yenidən gündəmə gətirilməsi onu göstərir ki, onlar yenə də bu və ya digər şəkildə öz işğallarını, anneksiyaya yönəldilmiş siyasəti davam etdirirlər. Məqsədləri dəyişməyib”.

**Politoloq vurğulayıb ki, bu, bizim üçün qəbuledilməzdir:**

”Çünki 30 il ərzində Azərbaycanın siyasəti bu həmlələrdən müdafiə olunmaq, ərazi bütövlüyünü və suverenliyini qorumaq olub. İndi isə buna cavab olaraq, ölkəmizə qarşı yönəldilmiş siyasəti özlərinə qarşı istifadə etmək imkanımız var. Yəni bu, çox ciddi xəbərdarlıqdır. Hesab edirəm ki, vaxtında verilmiş mesajdır. Faktiki olaraq Azərbaycan artıq iki il ərzində azad edilmiş ərazilərdə güclənib. Bu baxımdan ermənilərə və onların işğalçı siyasətinə cavab vermək imkanımız var və onu edəcəyik”.

**Çimnaz Şahlar**

# Yoluxma sayında kəskin artım müşahidə olunur

## Qapalı məkanlarda və metroda tibbi maskadan istifadə vacibdir



**Şahvələd Məmmədov:** “Uşaqlarla bağlı da valideynlər diqqətli olsunlar. Əllər yuyulmamış ərzağa toxunmağa, qida qəbuluna icazə verməsinlər”

**Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, ötən həftə ərzində qlobal olaraq koronavirus (COVID-19) infeksiyasına yoluxma halları artmaqdadır. Bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi birgə məlumat yayıb.**



Qeyd olunur ki, ÜST dünyada müşahidə olunan yüksək artım fonunda qapalı məkanlarda maskalardan istifadə etməyi və gigiyena qaydalarına əməl olunmasını tövsiyə edir. ”Azərbaycanda da son günlər COVID-19 infeksiyasının yayılması ilə əlaqədar neqativ dinamika izlənilir. Yoluxanların sayında artım və yoluxan şəxslərin sağalanlara nisbətdə üstünlük təşkil etməsi müşahidə olunur. Ölkəmizin səhiyyə qurumları vətəndaşlarımıza qapalı məkanlarda tibbi maskaların taxılmasını, sosial məsafənin gözlənilməsini, təmasların azaldılmasını, respirator gigiyena qaydalarına əməl olunmasını təkidlə tövsiyə edir. Qeyd edək ki, proses səhiyyə qurumları tərəfindən diqqətlə izlənilir və nəzarət altındadır. Pandemiya ərzində mənfi dinamikanın aradan qaldırılması ilə bağlı xeyli təcrübə toplanılıb. İstənilən hallarda vəziyyətə uyğun adekvat qərarlar verilə bilər. Bir daha vətəndaşlarımıza qapalı məkanlarda tibbi maskalardan istifadə və gigiyena qaydalarına riayət etmələrini ciddi şəkildə tövsiyə edirik”, - məlumatda deyilir.

**Təcili Tibbi Yardım Stansiyasının həkimi, terapevt Şahvələd Məmmədov ”Şərq”ə açıqlamasında son günlərdə koronavirusa yoluxmada artım müşahidə edildiyini təsdiqlədi:**

- Həqiqətən də yoluxma sayında artım var. Bunu Təcili yardıma edilən zənglər, müraciətlər də göstərir. Biz daim əhalini ehtiyatlı olmağa çağırırdıq ki, pandemiya hələ bitməyib, virus təhlükəsi, yoluxma ehtimalı yüksəkdir. Amma yay fəsli, insanların istirahət etmək, ölkədən kənara çıxmaq istəyi də təbii qarşılanmalıdır. İstirahət məkanlarındakı sıxlıq, vətəndaşların müəyyən məkanlarda, məsələn, dəniz sahilində, parklarda, istirahət guşələrində sıx toplaşması, bölgələrə qrup halında, yaxud da ailəvi səfərlər, səyahətlər yoluxma təhlükəsini artırır. Ona görə də əhali ehtiyatı əldən verməməlidir. Əgər qapalı məkandadırsa, yaxşı olar ki, tibbi maskalardan istifadə edilsin, gigiyena qaydalarına ciddi əməl etsinlər. İctimai nəqliyyatda da sıxlıq müşahidə edilir. Baxmayaraq ki, məzuniyyətlər dönəmidir, metroda, avtobuslarda, əvvəlki qədər olmasa da, yenə, az-çox sıxlıq var. Metro qapalı yerdir, yaxşı olar ki, şəxsi təhlükəsizlik üçün tibbi maskalardan istifadə edilsin. Ümumiyyətlə, fiziki məsafə saxlamağın mümkün olmadığı yerlərdə ehtiyatı əldən verməməliyik. Uşaqlarla bağlı da valideynlər diqqətli olsunlar. Əllər yuyulmamış ərzağa toxunmağa, qida qəbuluna icazə verməsinlər. Artıq pandemiyanın 2-ci ili başa çatmaq üzrədir, biz virusdan qorunmağın yollarını öyrənmiş olmalıyıq. Şəxsi gigiyena, əllərin spirtlə tez-tez dezinfeksiyası, tibbi maska, insanların sıx toplaşdığı yerlərə getməmək. Və əlbəttə ki, vaksinasiya. Bu üsullarla özümüzü qoruya bilərik.

**Məlahət Rzayeva**

**19 iyulda Türkiyə, İran və Rusiya prezidentlərinin Tehranda üçtərəfli sammiti keçiriləcək. Hər 3 dövlətin Cənubi Qafqaz regionu ilə qonşu olması və sammitin Qərbin Rusiya ilə rəqabəti, İranla isə nüvə məsələsi üzrə qarşıdurması şəraitində keçirilməsi bizim üçün görüşün əhəmiyyətini artırır.**



# Tehran sammitində gözlənilməz qərarlar çıxacaq

## Qardaş Türkiyənin olduğu bir ortamda Azərbaycan üçün narahatlıq yoxdur

Bu ölkələr bir neçə regionda rəqib olsalar da, aralarındakı rəqabəti birbaşa yox, proksi qüvvələr vasitəsilə aparırlar. Suriyada İran Rusiya ilə maraqlarını qismən uyğunlaşdıra bilsə də, üç dövlət əsasən rəqib hesab olunurlar. Rəqabətdən əməkdaşlığa keçid üçün 2017-ci ildə Astanada Suriya münaqişəsinin dinc tənzimlənməsinə yönələn danışıqlar baş tutmuşdu. Əldə edilən razılaşmalara rəğmən, tərəflər arasında mövcud ziddiyyətlər tam aradan qalxmadı. Münaqişə 12 milyona qədər məcburi köçkün və qaçqın yaradaraq, bir neçə region üçün böyük miqrasiya probleminə səbəb oldu. Astana formatında 2-ci görüş 2021-ci ildə Soçidə keçirildi. Əldə edilən razılaşmalara rəğmən münaqişə hələ də davam edir, tərəflər arasında ziddiyyətlər isə artır. Ziddiyyətlərin münaqişəyə çevrilməməsi üçün 3-cü sammit olduqca əhəmiyyətlidir. Qlobal geosiyasi qarşıdurma şəraitində üç dövlət arasında münaqişənin yaranması ABŞ başda olmaqla Qərb ölkələrinin vəziyyətdən öz maraqları naminə istifadə etməsinə şərait yaradacaq. Ona görə də 3-cü sammit Astana formatına yeni impuls verilməsi kimi qiymətləndirilir. Ekspertlərə görə, hər 3 dövlət müstəqil xarici siyasət yürüdür. Türkiyə NATO üzvü olsa da Qərbin Rusiya və İrana qarşı sanksiyalarına qoşulmur. Xarici siyasətini beynəlxalq öhdəliklərini nəzərə alaraq tarazlı şəkildə həyata keçirir. Rusiya və İranın da Türkiyəyə münasibəti Qərbə olan yanaşmadan keyfiyyətcə fərqlənir.

Kremlin mətbuat katibi Dmitri Peskov bildirib ki, Vladimir Putinin Tehrana səfəri çərçivəsində İran və Türkiyə ilə siyasi dialoq, ticari-iqtisadi münasibətlər də daxil olmaqla, ikitərəfli əməkdaşlıq əlaqələrinə dair müzakirələr aparılacaq. O qeyd edib ki, Vladimir Putin Tehrana səfəri çərçivəsində iranlı həmkarı İbrahim Rəisi və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə danışıqlar aparacaq, həmçinin İranın Ali Rəhbəri Əli Xameneini ziyarət edəcək: ”Əlbəttə, bizim ikitərəfli əlaqələri, ilk növbədə İran və Türkiyə ilə ticari və iqtisadi əlaqələri, bu iki ölkə ilə siyasi dialoqun davam etdirilməsinin perspektivlərini və bütün metodlarını müzakirə etmək fürsətimiz olacaq”. Peskov dövlət başçılarının görüşünün regional və beynəlxalq məsələlərin müzakirəsi üçün yaxşı fürsət olduğunu vurğulayıb.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev ”Şərq”ə bildirib ki, Tehran sammiti bir çox məsələyə görə xüsusi önəm kəsb edir. Professor deyib ki, Tehran görüşü ”Böyük ipək yolu”, yəni Avropaya çıxış probleminin də həlli anlamına gəlir:** ”Qafqazda sabitlik və təhlükəsizliyin təmin olunması çox vacibdir. Bölgədə dayanıqlı sülh, barış və qonşuluq şəraitində yaşamaq məsələsi həllini tapmalıdır. Eyni zamanda bu dövlətlər arasında bir neçə istiqamətdə problemlər var. Rusiya və İran Ermənistanı dəstəklədiyi halda Türkiyə Azərbaycanın yanındadır. Sammitdən sonra Azərbaycan-Ermənistan münasibətlərinin yeni məcraya yönəlməsi prosesi baş verə bilər. Rusiya, Türkiyə və İran təkcə Suriyada deyil, İraqda da ciddi problemlərlə üzləşirlər. Hər üç ölkənin ərəb dünyasında fərqli maraqları, proseslərə fərqli baxışları var. İranla fars körfəzi, Pakistan və Əfqanıstan arasında qarşıdurmalar da göz önündədir. Görünən odur ki, bölgə çox qaynar mərhələyə yaxınlaşır. Sammit qaynar mərhələnin nisbətən sakitləşməsinə səbəb ola bilər.

Baydenin Yaxın və Orta Şərqə, Səudiyyə Ərəbistanına səfəri göstərdi ki, İsrail-ABŞ İranın nüvə məsələsində çox ciddidilər. Hətta zəruri halda ordu yeritmək məsələsini belə gündəmə gətirdilər. Bu proseslərdə Türkiyənin rolu çox mühümdür. Türkiyə NATO üzvü kimi həm Rusiya ilə münasibətlərdə, həm də Ukrayna məsələsində öz mövqeyini açıq ortaya qoyur. Ankara hökuməti Rusiyanın tam blokadaya alınmasının əleyhinədir. İran da 40 ildən çoxdur iqtisadi blokada vəziyyətindədir. Təbii ki, burada molla rejiminin yeritdiyi səhv siyasət də əsaslı səbəblərdəndir. İran iqtisadi cəhətdən iflas həddindədir. Üç ölkənin sammitində iqtisadi məsələlərin də ön planda olacağı şübhəsizdir”.

*C.Nuriyevə görə, üçlü görüşdə Zəngəzur dəhlizinin və alternativ marşrutların açılması ilə bağlı müzakirələr davam etdiriləcək:* ”İran ərazisindən kommunikasiya xəttinin keçirilməsində Azərbaycan da maraqlıdır. Yaxın gələcəkdə Azərbaycan bir növ Aralıq dənizinə, Hind okeanına açılan ”tranzit qapı” statusunda olacaq. Keçən yüklərin sayı o qədər çox olacaq ki, Azərbaycan təkcə İrandan deyil, Zəngəzurdan keçən dəhlizdən də istifadə edəcək. İranla Türkiyə arasında PKK və Yaxın Şərqlə bağlı problemlərin həlli də masaya yatırılacaq. Tehranla bir çox məsələdə fikir ayrılıqları var. İstənilən halda sammit hər üç ölkə, o cümlədən region üçün əhəmiyyətlidir. Əlbəttə, İran və Rusiyanın Azərbaycanın maraqlarına cavab verməyən davranışları mümkündür. Ancaq qardaş Türkiyənin olduğu bir ortamda bizim üçün narahatlıq yoxdur. Ankara bütün platformalarda rəsmi Bakının da maraqlarını müdafiə edir”.

**İsmayıl Qocayev**



# Nazirlərin Tbilisi görüşündə gözlənilən nəticə olmadı

**Asif Nərimanlı:**
“Bakı bundan sonra iki istiqamətdə hərəkət edə bilər”

**Məhəmməd Əsədullazadə:**
”Prosesdə irəliləyişin olması üçün Türkiyə də Ermənistana təsir göstərir”

**İyulun 16-da Tbilisidə Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan arasında ilk dəfə ikitərəfli görüş keçirildi. 3 saat davam edən görüşdə tərəflər müxtəlif məsələləri hərtərəfli şəkildə müzakirə ediblər.**

Nazirlər Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması ilə bağlı bir sıra məsələlərə toxunublar. Bununla bağlı hər iki tərəf götürdükləri öhdəliklərin icrasını müzakirə edib, gələcək mümkün addımlar barədə fikir mübadiləsi aparıblar. Bununla belə, danışıqların birinci raundunun konkret nəticə vermədiyini söyləmək mümkündür. Bütün hallarda Tbilisidə keçirilən görüş bir ilk idi və danışıqların ilk raundunda konkret nəticələrin əldə olunmaması heç də təəccüblü deyil. Görüş sonrası rəsmi Bakı və İrəvanın açıqlamaları da diqqət çəkir. Sevindirici hal odur ki, hər iki tərəf münasibətlərin normallaşmasını istəyir, tərəflər bu formatda dialoqun davam etdirilməsinə razılaşıblar. Lakin fikir ayrılıqları da kifayət qədərdir. Azərbaycanın hazırda əsas tələbləri bunlardır: - Erməni silahlı birləşmələri Azərbaycan ərazisindən çıxarılmalı, Ermənistan ”status” istəyinə son qoymalı, Zəngəzur dəhlizinə mane olmamalı və dəhlizin ərazisindən keçən hissəsində işlərə başlamalıdır. Həmçinin, rəsmi İrəvan ATƏT-in Minsk Qrupunun bərpası səylərinə də son qoymalıdır. Ən əsası isə delimitasiya və demarkasiya prosesi sürətləndirilməlidir. Rəsmi Bakı bu və digər məsələlərin növbəti 27 il ərzində deyil, ən qısa zamanda həllini istəyir. Prezident İlham Əliyevin müşavirədə toxunduğu məqamlar da bunu təsdiqləyir. Növbəti görüşün harada və nə vaxt baş tutacağı ilə bağlı da məlumat yoxdur. Gürcüstanın Xarici işlər naziri İliya Darçiaşvili ”Biz gələcək görüşlərin vaxtı barədə danışmadıq” deyib. Ekspertlərə görə, bu, mənfi haldır, çünki həllini gözləyən məsələlərin həlli üçün növbəti görüşün ən qısa zamanda keçirilməsi vacibdir.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə deyib ki, Bakı və İrəvanın görüşlə bağlı rəsmi açıqlamalarında üst-üstə düşən və fərqli məqamlar var. Ekspert bildirib ki, üst-üstə düşən məqamlar odur ki, hər iki tərəf münasibətlərin normallaşmasını istəyir:** ”Eyni zamanda Ermənistan Bakıda həbsdə olan ”hərbi əsir” hesab etdiyi erməni terrorçuların qaytarılmasını, Azərbaycan itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyinə aydınlıq gətirilməsini tələb edir. Fərqli məqamlar isə görüşün nəticələrini və hadisələrin mümkün inkişafını müəyyənləşdirir. Bakı üçtərəfli razılaşmaların bütün bəndlərinin icrasını tələb edir. Bura Rusiya tərəfinin iyun ayına qədər çıxarılmasına söz verdiyi, lakin vədini yerinə yetirmədiyi 4-cü bəndin həyata keçirilməsi, o cümlədən, Zəngəzur dəhlizinin Ermənistan tərəfinə düşən hissəsində işlərin başlanılması da daxildir. Rəsmi İrəvanın açıqlamasında sadəcə ”öhdəliklərin yerinə yetirilməsi” qeyd olunur. İrəvan ”Qarabağ münaqişəsinin” həll edilmədiyini deyir. Minsk qrupunun mandatından istifadə edilməsini istəyir. Halbuki, rəsmi Bakının açıqlamasında bununla bağlı heç bir qeyd yoxdur. Uzlaşan və çarpazlaşan məqamlar deməyə əsas verir ki, 3 saat davam edən görüşdə humanitar və ikitərəfli dialoqun davam etdirilməsi razılaşdırılsa da, prinsipial məsələlər açıq qalır. Xüsusilə İrəvanın ”münaqişə” və Minsk qrupu haqda dedikləri ”status” iddiasında israrlı olduğunu göstərir. Prezident son çıxışında XİN rəhbərlərinin görüşünün nəticəsini gözlədiyini, addımların buna uyğun atılacağını bəyan etmişdi. Rəsmi açıqlamalar prinsipial məsələlərlə bağlı anlaşmanın olmadığı ehtimalını önə çıxarır və bu kontekstdə Bakı iki istiqamətdə hərəkət edə bilər. İlk növbədə Zəngəzura status istəyi ilə bağlı məsələni praktiki mərhələyə keçirə bilərik. Digər yandan miqyasından asılı olmayaraq, Ermənistanı, həm də prosesdə iştirakçı olan bütün tərəfləri razılaşmaların icrasına məcbur edəcək addımlar atarıq”.

**Politoloq Məhəmməd Əsədullazadə deyib ki, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin birbaşa görüşü ikitərəfli danışıqların başlaması baxımından faydalıdır. Analitikə görə, görüşün Tbilisidə keçirilməsi kənar vasitəçilərin müdaxiləsini sıfıra endirir:** ”İkitərəfli görüşün keçirilməsi Prezident İlham Əliyevin Ermənistana təklifi idi. Ermənistan tərəfi müharibədən sonra ikitərəfli danışıqlara getmirdi. Məhz Ermənistanda müxalifətin etirazları fiaskoya uğradıqdan sonra Paşinyan ikitərəfli danışıqlara razılıq verdi. İkitərəfli danışıqların davam etməsi müəyyən irəliləyişə gətirib çıxara bilər. Türkiyə də bu prosesdə Ermənistana təsir göstərir. Çox güman, Ərdoğan-Paşinyan telefon danışığında bu məsələ də razılaşdırılıb. Ermənistanla Türkiyə bir neçə məsələdə razılıq əldə edib. Düşünürəm ki, xarici işlər nazirlərinin görüşündə Ermənistan tərəfi müəyyən öhdəliklərə əməl edilməsini qəbul edib”.

**İsmayıl Qocayev**

# Azərbaycanın elm tarixində bir ilk

## Professor Abdulla Avey dünya alimləri siyahısında 40-cı yerdə qərarlaşıb

**Beynəlxalq elmi məlumat bazası olan və bütün dövlətlər tərəfindən qəbul edilən SCOPUS dünyanın bütün alimlərinin mütəmadi olaraq h indeksini dərc edir. H indeksi alimin nəşrlərinin həm məhsuldarlığını, həm də sitat təsirini ölçən beynəlxalq səviyyədə tanınmış metrikdir.**

”Şərq” xəbər verir ki, azərbaycanlı professor Abdulla Avey (Sofiyev) SCOPUS-da h indeksi 40 olan ilk azərbaycanlı alimlərdən biridir. Bu, Azərbaycanın elm tarixində ilklərdən biridir.

Həmyerlimiz Abdulla Avey 2005-ci ild?n Süleyman D?mir?l Universitetinin professoru v? İnşaat Müh?ndisliyi Bölümü Mexanika kafedrasının müdiri v?sif?sind? işl?yir. Professor, riyaziyyat-mexanika ixtisası üzrə dünyada tanınmış alim Abdulla Avey 2020-ci il üzrə də ”Plos Biologiya” adlı elmi jurnalında dərc olunan siyahıda dünyanın ən nüfuzlu elm adamları siyahısına daxil edilib. Seçim elmi məqalələrin və məqalələrə istinadların sayına görə və digər elmmetrik parametrlərə görə həyata keçirilib.




Professor Abdulla Aveyi həm dünyanın ən nüfuzlu elm adamları siyahısına daxil edilməsi münasibətilə təbrik edir, ona elmi fəaliyyətində və şəxsi həyatında uğurlar arzu edirik.

*Qeyd edək ki, professor Abdulla Sofiyev (Avey) əslən Qazax rayonunun Daş Salahlı kəndindəndir və ”Qazax” Xeyriyyə İctimai Birliyinin fəxri üzvüdür.*

**İsmayıl**



# Milli Mətbuat Günü münasibətilə yerli və xarici media nümayəndələrinin "Neft Daşları"na səfəri təşkil olunub

**Milli Mətbuat Günü ərəfəsində - 2022-ci il 18 iyul tarixində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA) birgə təşkilatçılığı ilə yerli və xarici media nümayəndələrinin ”Neft Daşları”na səfəri təşkil olunub.**

”Şərq” xəbər verir ki, səfərdə, həmçinin Vətən müharibəsi iştirakçıları və veteran neftçilər iştirak ediblər.

”Neft Daşları”nda qonaqları Neft-qaz çıxarma idarəsinin rəisi Balaəli Cəfərov qarşılayıb.

İştirakçılar əvvəlcə xalqımızın Ümummilli lideri Heydər Əliyevin ”Neft Daşları”nda ucaldılmış abidəsini ziyarət edib, Ulu Öndərin adını daşıyan muzey ilə tanış olublar. Nümayəndə heyətinə Ümummilli Liderin neft sənayesinin inkişafına göstərdiyi diqqət və qayğısını əks etdirən tarixi fotolar haqqında məlumat verilib.

Daha sonra görkəmli neftçi-geoloq Ağaqurban Əliyevin abidəsi və Xəzəri fəth edərkən dənizdə həlak olmuş neftçilərin xatirəsinə ucaldılmış abidə kompleksi ziyarət edilib.

Vətən müharibəsi iştirakçısı Zahid Məmmədkərimov ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olmuş neftçilərin abidə kompleksinin qarşısında həmkarlarının qəhrəmanlığından danışıb.

Səfər iştirakçıları daha sonra dünyada açıq dənizdə sənaye üsulu ilə qazılan ilk neft quyusu ilə tanış olub, onlara quyunun tarixi və istismar dövrü barədə məlumat verilib.

Nümayəndə heyəti, həmçinin Qaz Turbin İstilik Elektrik Stansiyasına səfər edib.

Media nümayəndələri ilə keçirilən görüşdə ”Azneft” İB-nin baş direktoru Şahmar Hüseynov Milli Mətbuat Günü münasibətilə onları təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə çıxış edən qocaman neftçi, professor Alçın Şirinzadə müxtəlif vaxtlarda media nümayəndələri ilə görüşlərindən məmnunluqla danışıb.

Tədbir neftçilərin təqdimatında Milli Mətbuat Gününə həsr olunmuş konsert proqramı ilə yekunlaşıb.

**Aygün**



# Sıradan bir səfər deyil

## CİA şefinin Paşinyanla görüşünü Rusiya xüsusi həssaslıqla araşdıracaq

**ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Börnsün Rusiyanın hərbi müttəfiqi Ermənistana səfəri olduqca maraqlı proseslərdən xəbər verir.**

Rusiya artıq buna neqativ reaksiya verməyə başlayıb. Rusiya səfirinin gözlənilmədən Şuşaya səfər etməsini də ABŞ Mərkəzi Kəşfiyyat İdarəsi şefinin İrəvan səfərinə Kremlin cavab reaksiyası hesab etmək olar. Rusiya KİV-ləri artıq Paşinyan hakimiyyətini hədəfə alıblar. Və bu, hələ başlanğıcdır.

**Politoloq Elçin Xalidbəyli deyib ki, böyük ehtimalla CİA direktorunun Ermənistan Baş naziri Nikol Paşinyan ilə görüşünü Rusiya xüsusi həssaslıqla araşdıracaq. Analitikə görə, yəqin erməni baş nazir də Prezident Vladimir Putinə zəng edib, ona görüşlə bağlı məlumat verəcək:** ”Ancaq CİA direktorunun erməni baş nazir ilə görüşü sadəcə, telefon zəngi ilə izah ediləcək məsələ deyil. Böyük ehtimalla bu görüşün nəticələri Ermənistan Baş naziri Nikol Paşinyanın yaxın perspektivdə Rusiyaya münasibətdə tutacağı mövqe və davranışlarla ortaya çıxmağa başlayacaq. Hər halda, CİA şefinin Ermənistana təşrifinin sıradan bir səfər olmadığını Kremldə anlamamış deyillər. Çünki ABŞ xüsusi xidmət servislərinin şeflərinin analoji səfərləri və yüksək səviyyəli görüşləri nadir hadisədir”.

**Ekspert qeyd edib ki, adətən, dövlətlər ilə təmasları, xüsusilə də Ermənistan kimi kiçik ölkələrlə ünsiyyəti ABŞ Dövlət Departamentinin təmsilçiləri reallaşdırırlar:** ”İndi nədənsə, CİA direktoru şəxsən erməni baş nazir ilə qapalı görüş keçirir. Yəni Rusiya-Ermənistan münasibətlərində yeni, ziddiyyətli və həm də çox maraqlı mərhələnin başlana biləcəyi qətiyyən istisna deyil”.

**İsmayıl**

# "Real vəziyyət təşvişə düşməyə imkan vermir"

## Pərviz Heydərov: ”Böhran dərinləşmələri Azərbaycan üçün də olduqca dərin təhlükə və problemlər yaradır”

**2022-ci ildə baş verən geosiyasi proseslər və onun öncəsində yaşanan pandemiya dünya ölkələrinin iqtisadi durumu üçün gözlənilməz zərbə oldu. Xüsusilə inkişaf etmiş ölkələrdə iqtisadi durğunluq və geriləmə meyilləri hiss olunur.**



Rusiya-Ukrayna münaqişəsi fonunda 2022-ci il üçün qlobal iqtisadi artım proqnozu 4,1 faiz nisbətində götürülsə də, sonradan bu rəqəm 2, 9 faizədək azaldılıb. Avropa İttifaqı üçün də builki proqnozlara yenidən baxılıb. İlin əvvəlində 4 faiz artım proqnozlaşdırılan avropalılar bu göstəricini 2,8 faizədək azaldıblar.

Prezident İlham Əliyev də bu ilin altı ayının yekunlarına həsr olunan müşavirə zamanı dünya iqtisadiyyatındakı vəziyyətdən danışıb. Ölkə başçısının sözlərinə görə, çox böyük ehtimallar var ki, dünya iqtisadiyyatı tənəzzülə uğrayacaq: ”Yəni resessiya haqqında mötəbər beynəlxalq qurumlar, maliyyə qurumları artıq bir qaçılmaz fakt kimi danışırlar. Biz də buna hazır olmalıyıq”. Dünya iqtisadiyyatında yaşananlar təbii ki, ölkəmizdən də yan ötməyib. Lakin bu sahədə atılan addımlar və görülən işlər baş verə biləcək təhlükəni mümkün qədər azaldıb. Bunun nəticəsidir ki, bu gün durğunluq ölkədə zəif hiss olunur. Bunun fonunda Azərbaycandakı sabitlik, əminamanlıq, inkişaf və dinamik həyat iqtisadi böhranın qarşısını alır.

**Dünya iqtisadiyyatındakı böhranın ölkəmizə təsiri barədə ”Şərq”ə danışan iqtisadçı Pərviz Heydərov bildirib ki, böhran getdikcə dərinləşməkdədir:**

”Bu, enerji sahəsində özünü qabarıq şəkildə büruzə verməklə, digər sahələrə də geniş şəkildə yayılıb. Son nəticəni inflyasiya amilində görürük. Enerji daşıyıcıları sahəsində böhranın dərinləşməsi onların qiymətinin artmasına gətirib çıxarır ki, bu da domino effekti şəklində digər sektorlara və inflyasiya amilinə təsirini göstərir. Qlobal iqtisadi böhran durumunda Azərbaycanın bəxti onda gətirib ki, biz enerji daşıyıcıları sahəsində idxalçı deyilik. Biz ixrac edən ölkəyik. Yəni enerji daşıyıcılarını özümüz ixrac edirik. Ona görə də bu sahədə bizim itkilərimizdən çox qazancımız var desəm, yanılmaram. Amma təəssüflər olsun ki, dünya miqyasında enerji daşıyıcılarının qiymətinin artması, ixracatçı olsaq da, iqtisadi tarazlığımıza strateji baxımdan mənfi mənada təsir edir və təzyiqlər formalaşdırır. Ona görə də qlobal iqtisadiyyatın özündə baş verən böhran dərinləşmələri Azərbaycan üçün də olduqca dərin təhlükə və problemlər yaradır. Bu səbəbdən biz istər-istəməz bunun qarşısını almaq məcburiyyətində qalırıq”.

*İqtisadçı qeyd edib ki, Azərbaycan üçün ən mühüm şərt ərzaq məhsulları üzrə ölkəyə idxal olunan inflyasiyanın məhdudlaşdırılmasına nail olmaqdır:*

”Aqrar sektorda istehsalçı ilə tədarükçü arasında birbaşa əlaqənin yaranmasına da xüsusi diqqət yetirməliyik. Maksimum vergi güzəştlərinin tətbiq edilməsinə, gömrük mexanizmində mümkün dərəcədə sadələşmiş sistemin yaradılmasına nail olmalıyıq. Hesab edirəm ki, real vəziyyət təşvişə düşməyə imkan vermir. Amma qlobal iqtisadiyyatda baş verən hadisələri müntəzəm izləyib, proseslərin hansı istiqamətdə inkişaf etməyə meyilli olduğunu diqqət mərkəzində saxlamalıyıq”.

**Çimnaz Şahlar**

# Ağalıya qayıdış başlayır

## Yaxın zamanlarda digər şəhərlərimizə, kəndlərimizə də dönəcəyik

**Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti və rəşadətli ordumuzun məharəti nəticəsində 30 ilə yaxın erməni işğalına məruz qalan torpaqlarımız erməni tapdağından azad olundu.**



Dövlətimiz silahlı qüvvələrimizin igidliyi, qəhrəman oğullarımızın dişi, dırnağı ilə qazandığı ərazilərdə öz iqtisadi gücünə bərpa-quruculuq işlərini sürətlə davam etdirir. Gündən-günə abadlaşdırılan torpaqlarımızdan biri də Zəngilan rayonunun Ağalı kəndidir. Qeyd edək ki, mayın 27-də orada ”Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub.

Ölkə Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva mərasimdə iştirak ediblər. Bu açılış mərasimi ilə ”Böyük qayıdış” prosesinə start verilib. Orada 200 evdən ibarət gözəl bir ”ağıllı kənd” salınıb. Kənddə məktəb, tibb məntəqəsi, məşğulluq, sosial və digər xidmətlər fəaliyyət göstərəcək. Burada daha 150 mənzilin inşası nəzərdə tutulur ki, bunlar da ikimərtəbəli və üçmərtəbəli yaşayış binaları olacaq. Ağalı kəndinə ilk köç 19 iyulda baş tutacaq. 30 illik həsrətdən sonra 10 ailənin işğaldan azad olunmuş ərazimizə qayıtması qürurverici hadisədir.

**Millət vəkili Elman Məmmədov ”Şərq”ə açıqlamasında bildirib ki, 30 illik işğaldan sonra qısa müddət ərzində böyük bir kəndin yenidən, ”Ağıllı kənd” standartları səviyyəsində tikilib, istifadəyə verilməsi və oraya əhalinin qayıdışının təmin olunması ölkə Prezidenti cənab İlham Əliyevin apardığı çox uğurlu siyasətin nəticəsidir:**

”Bütün bərpa işləri dövlətimizin iqtisadi gücündən, imkanlarından xəbər verir. Heç bir beynəlxalq qurumun, xarici dövlətin yardımı olmadan ölkəmizin qısa zaman kəsiyində öz gücünə ərazilərin təhlükəsizliyinin təmin olunması, minalardan təmizlənməsi, yüksək səviyyədə quruculuq işinin aparılması asan deyil. ”Böyük qayıdış”la yanaşı köçəcək olan əhalinin işlə təminatı məsələsi artıq həll edilib. Eyni zamanda təhsil, səhiyyə, rabitə, kommunikasiya məsələlərinin hər biri kompleks şəkildə qaydasına salınıb. Bu, ”Böyük köç”ün, qayıdışın başlanğıcıdır.

Şuşada təkcə respublika yox, beynəlxalq səviyyəli, ardı-arası kəsilməyən tədbirlərin təşkili torpaq sahiblərinin geri döndüyündən xəbər verir.

Ermənilər həmin ərazilərin bizimki olduğunu deyirdi. 30 il ərzində məscidlərimizə, qəbiristanlıqlarımıza nifrət edirdilər. Bəs digər tikililəri niyə söküb, dağıdır, suyumuzu çirkləndirir, torpaqlarımızı zəhərləyirdilər?! Bu suallar və cavabları düşmənin vandal, aciz oldğunu bir daha təsdiq edir. Hazırda Ağalıya qayıdış başlayır. Yaxın zamanlarda digər şəhərlərimizə, kəndlərimizə də dönəcəyik.

Əhalini doğma yurd-yuvalarına qayıdış münasibətilə təbrik edirəm. Bütün məcburi köçkünlərimizə bu sevinc nəsib olsun”.

**Sücayət Mehti**

# Bahalaşma ən çox Vaşinqtonu sarsıdıb

## ABŞ Rusiyaya qarşı sanksiyaları yumşaltmaqla Kremldən də qarşılıq gözləyir



**Rusiya ilə kənd təsərrüfatı, energetika, tibb sahələrində, o cümlədən koronavirusla mübarizə, tranzit uçuşlar, eləcə də qeyri-hökumət təşkilatlarının işinə təsir edən əməliyyatlar ABŞ-ın sanksiyalar siyahısından çıxarılıb. Bu barədə ABŞ Maliyyə Nazirliyinin yaydığı məlumatda qeyd olunub.**

ABŞ Xəzinədarlığının Xarici Aktivlərə Nəzarət İdarəsi Rusiya ilə bağlı bir neçə xarici maliyyə institutlarına əsas lisenziya verib. Ekspertlərin fikrincə, Rusiyaya qarşı tətbiq edilən sanksiyaların bir hissəsinin aradan qaldırılması iqtisadi maraqlara söykənir. Buna rəğmən, hesab edilir ki, ABŞ-ın bu addımı Rusiyanın gözündə "geri çəkilmə" kimi dəyərləndiriləcək. Ağ Ev bundan sonrakı proseslərdə Kremlin əlinin uzanmasına şərait yaratmış olacaq.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə açıqlamasında bildirib ki, ABŞ-ın "yumşalması" Rusiyaya sətiraltı "jest" kimi dəyərləndirilə bilər. Ekspertə görə, görünür, Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyaların dünya bazarlarında yanacaq, ərzaq və gübrənin qiymətini bahalaşdırması daha çox ABŞ-ı sarsıdır:** "ABŞ kənd təsərrüfatı, dərman məhsulları və tibbi avadanlıqlarla bağlı müəyyən növ əməliyyatlara icazə verməklə Rusiyadan da qarşılıq gözləyir. Rusiya bu qarşılığı vermək məcburiyyətindədir. Çünki İstanbulda Türkiyə, Rusiya, Ukrayna və BMT nümayəndələrinin iştirakı ilə keçirilən görüşdə Qara dəniz limanlarında Moskvanın blokadasında qalan taxılın bazarlara çıxarılmasına dair razılıq əldə edilib. Amerika bununla hədəfləyir ki, özünə qarşı yaranan iqtisadi təzyiqləri azaltsın, qlobal hegemonluqda üzərinə çəkdiyi humanitar pərdənin cırılmasına imkan verməsin. Ümumilikdə Qərbdə Rusiyaya qarşı sanksiyaların yumşaldılması məsələləri müzakirə mövzusudur. Artıq Avropa İttifaqı da Rusiyanın 40-a yaxın şəxsinin adının qara siyahıdan çıxarılmasına razılıq vermək niyyətindədir. Bunlar proseslərin arxasında gizli əl sıxışmalarının baş verdiyinin nişanəsidir və məsələyə siyasi cəhətlərlə baxışı gündəmə daşıyır. Nəzərə almaq lazımdır ki, Ukrayna "HİMARS" sistemləri ilə Rusiyanın işğal etdiyi əraziləri atəşə məruz qoysa da, müharibənin gedişatında Kiyevin xeyrinə nəticə əldə edilməyib. Əksinə, Rusiya daha da qəzəblənərək, artilleriya və raket hücumlarını genişləndirib. Bir az da irəli gedərək geosiyasi təkəbbürünün dozasını artırıb.

Görünür, Qərbin Rusiya ilə bağlı hərbi-siyasi həmlələri effektiv deyil. Ukraynanın silahlandırılması da Kiyevə üstünlük qazandırmır. Ona görə ki, Qərb daha güclü silahlarını Ukraynaya verməkdən yayınır. Qərb özünü odun-alovun içərisinə atmadan müharibədən qazanclı çıxmaq istəyirdi. Lakin özü iqtisadi zərbələr aldıqca, siyasətini Rusiyaya tərəf dəyişmək məcburiyyətini dərk edir".

**A.Kərimov deyib ki, Rusiyanın da Qərbdən istəyi var:** "Moskva NATO-nun Ukraynadakı münaqişəyə qarışmamasını tələb edir. Bu, Moskvaya qarşı əks qütbdə dayanan qüvvələr üçün uduzmaq deməkdir. Qərblə Rusiya Ukrayna mövzusunda ortaq məxrəcə gəlməyə məcburdur və cari vəziyyət Rusiyanın danışıqlarda üstünlüyünü çoxaldır. Qarşıdan soyuq aylar gəlir, müharibənin payız və qışa qədər uzanması Qərbə sərf etmir, Rusiyanın isə enerjisini çoxaldır. Rusiya enerji sektorundakı hökmranlığına paralel olaraq süni taxıl böhranı yaradır və bu rıçaqı əlindən buraxmayacaq. İstanbuldakı danışıqlarda əldə edilən razılaşmalar müvəqqəti xarakter daşıyacaq. Rusiya bu iqtisadi aləti əlində saxlamaq üçün Ukraynanın cənubunda, Qara dəniz limanlarında müdafiəsini gücləndirməklə möhkəmlənməyə davam edəcək. Əminlik yaranır ki, Rusiya ilə Qərb arasındakı məxfi təmaslar davam edir. Tərəflər razılığa doğru sürüklənir. Amma yekun sövdələşmə əldə olunana qədər müharibə öz şiddətini göstərəcək".

**İsmayıl**

# Qafqazda Osmanlı - rus çəkişməsi

## Tarixçi-alim Emin Ünsalın kitabında yeni sənəd və faktlar var

**Türkiyənin Trakya Universitetinin müəllimi, tarixçi-alim Emin Ünsalın "Osmanlı İmperatorluğunun Qafqaz Siyasəti və Çıldır valisi Süleyman Paşanın (1771-1791) Fəaliyyətləri" adlı kitabında Qafqaz tarixi ilə bağlı mühüm yeni faktlar var.**




Üç bölümdən ibarət tarixi əsərdə ilk hissə Qafqazda türk-Osmanlı hökmranlığından, Atabəylərdən və Çıldır valiliyinin təşkilatlanmasından bəhs olunub. İkinci hissə də isə Çıldır valisi Süleyman Paşanın fəaliyyətləri əksini tapıb. Üçüncü bölümdə Osmanlı dövləti ilə Rusiya arasında münasibətlərin korlanması və Süleyman Paşanın mübarizəsi oxucuların diqqətinə çatdırılıb. Qeyd olunub ki, Osmanlı dövləti ilə Rusiya imperiyası arasında imzalanmış Küçük Qaynarca müqaviləsindən sonra (1774-cü il) Krım və Qafqaz bölgəsində üstünlük ruslara keçdi. Bu dövrdə Osmanlı dövlətinin Qafqaz regionunda tətbiq etdiyi idarəetmə və siyasət strategiyası Çıldır valisi Süleyman Paşanın fəaliyyətləri üzərindən həyata keçirilirdi. Osmanlı dövlətinin Qafqaz siyasətini daha dərindən öyrənmək üçün Süleyman paşanın fəaliyyəti xüsusi önəm kəsb edir. Bu kitabda Çıldır valisi Süleyman paşanın fəaliyyəti fonunda XVIII əsrin sonunda bölgədə yaşanan siyasi proseslər, Çıldır vilayətinin oynadığı önəmli rol, Azərbaycan xanlıqları və Dağıstanla əlaqələr yerli və xarici tarixi mənbələr, Osmanlı dövrünün qiymətli arxiv sənədləri əsasında geniş araşdırılıb. Müəllif "ön söz"də vurğulayıb ki, Qafqaz müxtəlif maraqların toqquşmasına məruz qalan mühüm və strateji coğrafiyadır. Anadolu, Qara dənizin şimalı və Orta Asiyaya qədər uzanan geniş ərazidə söz sahibi olmaq istəyən hər dövlət Qafqaza da öz təsirini göstərməyə çalışıb. XVIII əsrdən etibarən güclənən Rusiya çarlığı, o cümlədən İran dövləti də Qafqaz və Anadolu uğrunda Osmanlı ilə mübarizə aparırdı. Bu proseslərin gedişatında ən mühüm rol oynayan tarixi-siyasi fiqurlardan biri də 1771-ci ildə Çıldıra vali təyin olunmuş, Atabəylər sülaləsindən olan Süleyman paşa idi. Kitab həmin dövrdə bölgədə cərəyan edən proseslər fonunda, Osmanlı dövlətinin siyasətinin həyata keçirilməsində önəmli xidmətləri olmuş Süleyman paşanın fəaliyyətinə arxiv sənədləri ilə işıq tutub.

**İsmayıl**

# Kölgə iqtisadiyyatının ləğvi üçün ictimai nəzarət gücləndirilməlidir

## Buna görə hökumətin və məmurların şəffaflığı, informasiya açıqlığı artırılmalıdır

**Prezident İlham Əliyev yenidən ictimai nəzarət məsələsinə toxunub. Dövlət başçısı ötən həftə sonu keçirilən müşavirədə növbəti dəfə kölgə iqtisadiyyatına qarşı mübarizənin effektiv olması üçün dövlət nəzarəti və ictimai nəzarətin vacibliyini vurğulayıb. Ölkə rəhbəri bildirib ki, kölgə iqtisadiyyatı ilə mübarizədə yaxşı nəticələr əldə olunsa da, yenə kölgə iqtisadiyyatı və narahat edən məsələlər var:**



"Əfsuslar olsun ki, etimad göstərdiyim bəzi kadrlar bu etimadı doğrultmayıblar. Kölgə iqtisadiyyatı, əlbəttə, hər ölkədə var, əsas məsələ onun həcmidir, dövlətin, hökumətin buna münasibətidir". Dövlət başçısı bəyan edib ki, kölgə iqtisadiyyatı adlı mənfi faktor olmamalıdır, yaxud da minimuma endirilməlidir: "Ona görə ən qabaqcıl texnologiyalar tətbiq edilməlidir - uçot, nəzarət və əlbəttə, kadrların yerləşdirilməsi. Əgər qurumun başında dayanan kadr öz cibinə işləyirsə, istəyirsən hansı elektron nəzarət vasitəsi olursa-olsun, onsuz da onun heç bir əhəmiyyəti olmayacaq. Ona görə burada bu amillərin vəhdəti olmalıdır. İnstitusional tədbirlər, əlbəttə ki, dövlət nəzarəti, ictimai nəzarət və kadrların düzgün seçilməsi. Ona görə hesab edirəm, baxmayaraq ki, büdcəmiz artıb, o cümlədən şəffaflıq nəticəsində böyük dərəcədə artıb, buna görə yenə də rezervlər var. Kölgə iqtisadiyyatı bu rezervləri faktiki olaraq dövlətdən götürüb kiminsə cibinə istiqamətləndirir. Buna son qoyulmalıdır və biz bütün imkanlardan istifadə etməliyik". Şübhəsiz, dövlət sektorunda islahatların aparılması, dövlət nəzarətinin gücləndirilməsi istiqamətində zaman-zaman müəyyən addımlar atılıb. Prezident də dəfələrlə vurğulayıb ki, hökumətin fəaliyyəti, verilən tapşırıqların, fərman və sərəncamların icrası, məmurların fəaliyyəti üzərində ictimai nəzarətin daha effektiv təşkilinə və gücləndirilməsinə ciddi ehtiyac var.

**"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru Osman Gündüz bildirib ki, ictimai nəzarət imkanlarını yaratmaq üçün hökumətin və məmurların şəffaflığı, informasiya açıqlığı artırılmalı, hesabatlılıq güclənməlidir. Həmçinin, dövlət resurslarından istifadə üçün şəffaf və ədalətli mexanizmlər yaradılmalıdır:** "İctimai nəzarəti gücləndirmək üçün ilk növbədə QHT-lərin imkanlarını genişləndirmək lazımdır. 2014-cü ildə sektorun zəifləməsinə yönələn addımlara qiymət verilməli, nəticələri aradan qaldırılmalıdır. QHT-lərin maliyyə resurslarına əlçatımlığı təmin edilməlidir. Düşünürəm ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi proqram xarakterli, sosial şifariş xarakterli uzunmüddətli layihələrin dəstəklənməsi üçün hökumətdən əlavə resurslar tələb etməlidir. Əvvəllər Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafı üçün ildə təxminən 100 milyon manat qrantlar ayrılırdısa, 2014-dən sonra dövlət dəstəyi xətti ilə bu rəqəm 5-10 milyona endirilib. Uzun illər QHT sektorunda yetişən ekspertlər, mütəxəssislər, araşdırmaçı jurnalistlər indi resursların çatışmazlığından, ictimai informasiyalara çıxış imkanlarının yetərli olmamasından öz potensialını reallaşdıra bilmir. Agentlik müasir çağırışlara uyğun effektiv ictimai nəzarət imkanları, rəqəmsal mexanizmlər hazırlamalıdır. Təəssüf ki, QHT Agentliyinin bu tip məsələlərə təsir imkanları, reaksiyaları müşahidə olunmur.

Azərbaycanda indiki anda ictimai nəzarət mexanizmləri əsasən sosial media üzərində "oturub". Əgər bir anlıq təsəvvür etsək ki, Azərbaycanda sosial media qapadılıb, onda təsəvvür etmək çətindir ki, ictimai nəzarətin səviyyəsi necə olar.

Bəzi sahələrdə ictimai iştirakçılıq üçün, vətəndaşların iştirakı üçün müəyyən imkanlar yaradılıb, amma müşahidələr göstərir ki, ümumilikdə ictimai nəzarət üçün zəruri olan mexanizmlər, resurslar çatışmır".

*O.Gündüz hesab edir ki, ictimai əhəmiyyət kəsb edən informasiyalara, datalara əlçatımlıq yetərli deyil:* "Son zamanlar bəzi dövlət qurumları ictimai əhəmiyyət kəsb edən datalardan özləri kommersiya qurmaq üçün istifadə edirlər. Nəinki vətəndaş cəmiyyətinin, heç dövlət qurumlarının da bəzən bu tip datalara əlçatanlığı olmur. Bu tip datalar açıq məlumat bazaları formasında açıqlanarsa, bunların üzərində ictimai və biznes əhəmiiyyəti daşıyan rəqəmsal həllər yarana bilərdi.

Düşünürəm ki, QHT Agentliyi vətəndaş cəmiyyətinin inkişafı üçün səylərini gücləndirməlidir. İlk növbədə vətəndaş cəmiyyətinin inkişafını buxovlayan hüquqi normalar aradan qaldırılmalıdır. Prezident yanında İctimai Palatanın yaradılması ideyasını yenidən gündəmə gətirmək də faydalı olardı".

**Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Zaur İbrahimli isə bildirib ki, Agentlik bu istiqamətdə səylə çalışmaqdadır. Z.İbrahimli görülən işlərlə bağlı bir sıra məlumatları paylaşıb:** "Agentlik tərəfindən 2022-ci il 30 may-23 iyun tarixlərində, 10 rayonda "QHT-dövlət əməkdaşlığında yeni çağırışlar: ictimai nəzarət mexanizmlərinin gücləndirilməsi" mövzusunda zona konfransları keçirib. Konfransda, Agentliyin rəhbərliyi, Prezident Administrasyasının məsul əməkdaşları, 77 rayon icra hakimiyyəti başçılarının müavinləri, icra hakimiyyətləri yanında fəaliyyət göstərən İctimai Şuraların üzvləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, media nümayəndələri iştirak ediblər. Agentliyin maliyyələşdirdiyi qrant layihələri çərçivəsində Azərbaycanda ictimai iştirakçılığın vəziyyətinin qiymətləndirilməsi aparılıb. Eyni zamanda mövcud qanunvericiliyə uyğun olaraq "Konstitusiya" Araşdırmalar Fondu tərəfindən əlavə və dəyişikliklər hazırlanıb. Bir neçə regionda QHT resurs mərkəzləri tərəfindən yerli kontekst də araşdırılıb. İctimai Şuralarla bağlı data baza formalaşdırılmaqdadır. 2021-ci il üçün kiçik qrant müsabiqəsinin nəticələrinə əsasən, ictimai nəzarətin təşviqi, korrupsiyaya qarşı mübarizə məsələləri istiqaməti üzrə 15 QHT-nin təqdim etdiyi layihələr maliyyələşdirilib. 137 min 100 AZN qrant vəsaiti ayrılıb. Agentliyin Müşahidə Şurasının 26 may 2022-ci il tarixli iclasında ictimai iştirakçılıq, ictimai nəzarət təcrübəsinin təkmilləşdirilməsinə dair Prezidentə təkliflər təqdim edilməsi məsələsi müzakirə edilib. Təkliflər müzakirə olunub və növbəti dəfə yekun sənədin Prezidentə təqdim olunması barədə qərar qəbul edilib".

**İsmayıl**

# Azərbaycanın nüfuzu artır

## Aİ ilə əlaqələrin güclənməsi iqtisadi, siyasi dividendlər gətirəcək

**Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr ikitərəfli əməkdaşlıq, eləcə də Şərq Tərəfdaşlığı çərçivəsində çox uğurla irəliləyir.**



İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen ilə geniş tərkibdə keçirilən görüş də bunun isbatıdır.

Toplantıda Avropa İttifaqı ilə Azərbaycan arasında enerji təhlükəsizliyi ilə bağlı sənəd imzalanıb.

"Bu gün imzalanmış sənəd enerji sahəsində gələcək əməkdaşlıq üçün bir növ, yol xəritəsidir"- deyə Prezident İlham Əliyev vurğulayıb.

Ursula fon der Lyayen isə imzalanan Anlaşma Memorandumunun Aİ və Azərbaycan arasında enerji sahəsində əməkdaşlığı daha da gücləndirəcəyini söyləyib. Qeyd edək ki, Aİ Azərbaycanın əsas ticari tərəfdaşıdır, çox fəal siyasi təmasları mövcuddur.

**Avropa Komissiyası Prezidentinin Bakıya səfərini "Şərq"ə dəyərləndirən siyasi şərhçi Tural İsmayılovun qənaətincə, Azərbaycan Aİ-nin enerji təhlükəsizliyində mühüm rol oynayan ölkələrdən biridir**: "Bu, dəfələrlə Aİ rəhbərliyi tərəfindən, eləcə də ABŞ Prezidenti C.Bayden və dövlət katibi A.Blinkenin cənab Prezident İlham Əliyevə göndərdiyi təbrik məktublarında da nəzərə çatdırılıb. Azərbaycanın Amerikanın əsas tərəfdaşı olan Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rol təqdir edilib. Trans - Adriatik Boru Kəməri ( TAP ) layihəsi, Cənub Qaz dəhlizi Azərbaycanın Qərbin iqtisadi imkanlarına verdiyi töhfələri özündə ehtiva edir. Aİ heç də bir çox ölkələri tam olaraq enerji təhlükəsizliyi ilə təmin edə bilmir. Aİ-yə daxil ölkələrin bir çoxunun enerji və enerji məhsullarının idxalında böyük güclərdən asılıdır".

*Analitikin fikirlərinə görə, Aİ ilə Azərbaycan arasında çox önəmli və tarixi sazişin imzalanması Avropa İttifaqının gələcək enerji təhlükəsizliyində mühüm əhəmiyyətə malikdir:* "Azərbaycanın Avropaya ixrac etdiyi qazın həcminin xeyli artırılması nəzərdə tutulur. Gələcəkdə digər məhsullar üzrə də Azərbaycan - Aİ arasındakı səmərəli iqtisadi əməkdaşlığın dərinləşməsinə şərait yaradacaq. Şərq tərəfdaşlığı çərçivəsində və başqa layihələrdə siyasi əlaqələri gücləndirən Azərbaycan - Aİ iqtisadi, enerji təhlükəsizliyi sahəsində əməkdaşlıqla siyasi münasibətlərin daha da möhkəmlənməsinə töhfə verəcəklər. Hazırda Qarabağdakı yenidənqurma işləri, həmçinin həmin ərazilərin turizm mərkəzinə çevrilməsi fonunda Aİ ilə əlaqələrin güclənməsi iqtisadi, siyasi dividendlər gətirəcək".

**Aygün Tahir**

# Urmiya gölünün bilərəkdən qurudulması İran molla rejiminin siyasətidir

## Natiq Miri: "Təkcə Azərbaycan türkləri deyil, eyni zamanda İranda yaşayan bütün xalqlar zərər görəcək"




**Cənubi Azərbaycanın Urmiya şəhərinin yaxınlığında yerləşən Urmiya gölü son 30 il ərzində su ehtiyatının 95 fazini itirib.**

Bildirilir ki, İran parlamenti 9 il əvvəl gölün dirçəldilməsi üçün yaradılan kömitənin araşdırılmasına səs verib. Xatırladaq ki, göl və onun sahil ətrafı milli park sayılır və UNESCO tərəfindən biosfer qoruğu kimi tanınıb. Hadisə ilə bağlı İranda Cənubi azərbaycanlı soydaşlarımız aksiya keçiriblər. Onlar iddia edirlər ki, gölün suyunun qurudulması İran hökuməti tərəfindən qərəzli şəkildə aparılır.

**Gölün suyunun qurumasının humanitar faciə olduğunu deyən politoloq Natiq Miri "Şərq"ə bildirib ki, bu fəlakətin səbəbi İran hökuməti və onu yönləndirən molla rejimidir:** "Urmiya gölünün qurudulması İran hökumətinin xeyrinə olduğu üçün qəsdən gözardı edilib. Ona görə ki, bu gölün quruması torpaqların suvarılmamasına və şoranlaşmasına gətirib çıxarır. Bununla da yerli əhali köç etməyə məcbur qalır. Nəzərə alsaq ki, bu ərazidə yaşayan əsas dominant xalq Azərbaycan türkləridir. Bu cəhətdən düşünürəm ki, gölün qurudulması dövlət tərəfindən aparılan siyasətdir və eyni zamanda İran hakimiyyətinin ölkədə olan məsələlərə yetərsiz olduğu gerçəyini ortaya qoyur. Urmiya gölünün qurudulması şovinizmə xidmət etsə də, təbiətə yönəlmiş hadisədir. Buradan yaranan fəsadlardan təkcə Azərbaycan türkləri deyil, eyni zamanda İranda yaşayan bütün xalqlar zərər görəcək. İranda baş verən bu hadisələr faciəvi hal alıb. Urmiya gölünün quruması burada yaşayan soydaşlarımızın İrandan miqrasiya etməsinə gətirib çıxara bilər".

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**

# Xarici siyasət həmişə prioritetdir

## Azərbaycan beynəlxalq təşkilatlarla əlaqələri gücləndirməklə etibarlı tərəfdaşa çevrilir



**Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin 6 ayının yekunlarına dair keçirdiyi müşavirədə geniş nitqi həmişə olduğu kimi proqram xarakteri daşıyırdı. Dövlət başçısının açıqlamaları ölkənin inkişafı ilə bağlı bütün strateji hədəfləri müəyyən edirdi. Heç şübhəsiz, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan xalqının rifahının yüksəldilməsi, ölkəmizin təhlükəsizliyinin təmin edilməsi və dövlətimizin daha da güclənməsi dayanır.**

Dövlət başçısı verdiyi bütün vədlərə həmişə sadiq olub və qarşıya qoyulmuş vəzifələrə vaxtında və artıqlaması ilə nail olunub. Bu gün Azərbaycan bütün sahələrdə olduğu kimi xarici siyasətdə də böyük uğurlar qazanır. Beynəlxalq təşkilatlar çərçivəsində fəallığını durmadan artırır. Azərbaycan dünyanın aparıcı ölkələri və güc mərkəzləri ilə qarşılıqlı səmərəli əməkdaşlıq edir. Bunun nəticəsidir ki, indi ölkəmiz dünyanın çox etibarlı və əvəzedilməz tərəfdaşına çevrilib. Bütün bunlar Prezident İlham Əliyevin qətiyyəti və siyasi iradəsi nəticəsində mümkün olub. Dövlət başçısı da müşavirədə xüsusilə vurğulayıb ki, xarici siyasətimiz çox fəal olub və ölkəmizin beynəlxalq nüfuzu daha da artıb: "Nəticələr arasında, əlbəttə ki, Qoşulmama Hərəkatındakı uğurlu sədrliyimizi qeyd etmək istərdim. Bizim sədrliyimiz bildiyiniz kimi, 2023-cü ilə qədər yekdil fikirlə bir il uzadılıb. Bu onu göstərir ki, ölkəmiz 120 ölkə arasında çox böyük nüfuz qazanıb və bizə olan inam bu illər ərzində daha da artıb. Biz də məsuliyyətli ölkə olaraq və Qoşulmama Hərəkatının fəal sədri olaraq bu təsisatın institusional inkişafına da böyük töhfə vermişik. Önəmli addımlardan biri bu il Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin toplantısı və Parlament Şəbəkəsinin yaradılması idi. Bakıda keçirilmiş bu önəmli tədbir bir daha göstərdi ki, bu Hərəkatın çox böyük potensialı var, həmrəyliyi dərinləşdirmək, əməkdaşlığı genişləndirmək və qarşılıqlı beynəlxalq dəstək üçün bu, çox önəmli platformadır". Prezident digər beynəlxalq təşkilatlarla da fəal əməkdaşlıq edildiyini bəyan edib: "Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının yeni baş katibi Azərbaycana səfər etmişdi. Biz bu təşkilatla çox fəal əməkdaşlıq edirik. Əslində biz bu təşkilatın çox fəal üzvüyük və bizim təşəbbüsümüzlə Azərbaycanda bir çox tədbirlər keçirilib. Bu dəfə isə yeni seçilmiş Baş katib, eyni zamanda, azad edilmiş torpaqlara səfər edib - Füzuliyə, Şuşaya. Əlbəttə ki, biz görüş zamanı Ermənistanın Azərbaycana qarşı, bizim mədəni irsimizə qarşı törətdiyi vandalizm haqqında danışmışıq. Bu gün azad edilmiş torpaqlara səfər edən hər bir insan, - istər Azərbaycan vətəndaşı olsun, istər xarici vətəndaş olsun, - erməni vəhşiliyinin təzahürlərini öz gözü ilə görür. Biz İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində öz fəaliyyətimizi bundan sonra da uğurla davam etdirəcəyik". Ölkə rəhbəri Avropa İttifaqı ilə Azərbaycanın əlaqələrinə də təmas edib. Vurğulayıb ki, bu il Avropa İttifaqı ilə fəal əməkdaşlıq aparılıb: "Bildiyiniz kimi, biz yeni saziş üzərində işləyirik. Sazişin böyük hissəsi razılaşdırılıb və razılaşdırılmamış məsələlər də müzakirə olunur. Ümid edirəm ki, yaxın gələcəkdə bütün məsələlər razılaşdırılacaq. Avropa İttifaqı Şurasının Prezidenti ilə mənim bir neçə görüşüm olub, həm də telefon danışıqlarımız olub və əlbəttə ki, əsas mövzu Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasıdır. Ancaq eyni zamanda, Avropa İttifaqı-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı geniş müzakirələr aparılır. Yaxın günlərdə Avropa İttifaqı ilə Azərbaycan arasında önəmli sənəd - enerji təhlükəsizliyi ilə bağlı sənəd imzalanacaq və bizim əməkdaşlığımızı daha yüksək səviyyəyə qaldıracaqdır".

Prezident diqqətə çatdırıb ki, qonşu ölkələrlə əlaqələrimiz hər zaman bizim üçün əsas prioritetlərdən biri olub və bu il bu istiqamətdə addımlar atılıb: "Mənim Rusiya, İran, Gürcüstan prezidentləri ilə görüşlərim bir daha bunu göstərir. Eyni zamanda, Amerika-Azərbaycan əlaqələrinin inkişafı istiqamətində önəmli addımlar atılıb, yüksəkvəzifəli şəxslərin qarşılıqlı səfərləri təşkil edilib. Amerika Birləşmiş Ştatlarının Prezidenti mənə iki dəfə məktub göndərib - həm Müstəqillik Günü ilə bağlı, həm Bakı Enerji Həftəsinin açılışı ilə bağlı. Mənim də cavab məktublarımda və mənə göndərilən məktublarda da əlaqələrimizin önəmi xüsusilə qeyd olunmuşdur. Bu əlaqələrin həm böyük tarixi və gözəl gələcəyi var. Yəni bir sözlə, əsas güc mərkəzləri ilə, eyni zamanda, əsas beynəlxalq təşkilatlarla, baxın, cəmi bu altı ay ərzində nə qədər böyük işlər görülüb. Əgər ümumiyyətlə, son illərin tarixçəsinə nəzər salsaq görərik ki, Azərbaycan hər istiqamət üzrə irəliləyib. Bizim mövqeyimiz hər zaman müstəqil mövqe olub, biz hər zaman öz mövqeyimizi açıq nümayiş etdirmişik, o cümlədən buna görə dünyada böyük hörmət qazanmışıq. Həmişə sözümüzdə dururuq, həmişə verilən sözə sadiqik".

**Millət vəkili, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü Cavid Osmanov "Şərq"ə bildirib ki, ölkə başçısının həyata keçirdiyi düşünülmüş daxili və xarici siyasət nəticəsində uğurla inkişaf edən Azərbaycan bu gün beynəlxalq nüfuz sahibinə çevrilib.** Deputatın sözlərinə görə, Azərbaycanın beynəlxalq arenada oynadığı rol, göstərdiyi həmrəylik və ehtiyac içərisində olan ölkələr üçün verilən humanitar, maliyyə dəstəyi ölkəmizin beynəlxalq nüfuzunu böyük dərəcədə artırıb: "Bundan əlavə, ölkəmizin beynəlxalq təşkilat və təsisatlarda əsas ölkələrdən biri olaraq çıxış etməsi deyilənlərə bariz nümunədir. Bu sırada Qoşulmama Hərəkatındakı uğurlar xüsusi olaraq qeyd olunmalıdır. Azərbaycanın sədrlik müddətinin 2023-cü ilə qədər uzadılması onu göstərir ki, ölkəmiz 120 ölkə arasında çox böyük nüfuz qazanıb. Ölkəmizə olan inam bu illər ərzində daha da artıb. Azərbaycan Qoşulmama Hərəkatının institusional inkişafına böyük töhfə vermiş ölkədir. Önəmli addımlardan biri bu il Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin toplantısı və Parlament Şəbəkəsinin yaradılması oldu".

**Parlament üzvü qeyd edib ki, ölkə başçısı ölkəmizin Avropa İttifaqı, Türk Dövlətləri Təşkilatı, eyni zamanda qonşu ölkələrlə olan münasibətləri haqqında da məlumat verərək əməkdaşlıqların yüksək səviyyədə olduğunu qeyd edib:** "Azərbaycan Türk Dövlətləri Təşkilatı çərçivəsində hər zaman fəallıq göstərir və türk dövlətləri ilə əlaqələrin inkişafı ölkəmiz üçün prioritet məsələlərdən biridir. Avropa İttifaqı-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı geniş müzakirələr aparıldığını bildirən Prezident cənab İlham Əliyev yaxın günlərdə tərəflər arasında önəmli sənədin - enerji təhlükəsizliyi ilə bağlı sənədin imzalanacağını və bununla da əməkdaşlığın daha yüksək səviyyəyə yüksələcəyini bildirdi. Son dövrlər ərzində Amerika-Azərbaycan əlaqələrinin inkişafı istiqamətində də önəmli addımlar atılıb. Yüksək vəzifəli şəxslərin qarşılıqlı səfərləri təşkil edilib. Amerika Birləşmiş Ştatlarının Prezidenti Prezident İlham Əliyevə iki dəfə - həm Müstəqillik Günü ilə bağlı, həm də Bakı Enerji Həftəsinin açılışı ilə bağlı məktub göndərib. Bu, Amerika-Azərbaycan əlaqələrinin böyük tarixə malik olmasından, həmçinin əlaqələrin gözəl gələcəyindən xəbər verir".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Qazilər diqqətdən kənar deyil

## Fuad İbrahimov: "Bizim bütün büdcə layihələrimizdə qazilərin xüsusi yeri olacaq"



**Azərbaycanda şəhid ailələri, qazilər və müharibə iştirakçılarına daim diqqət, qayğı göstərilir. 44 günlük Vətən savaşından sonra da bu proses davam etdirilib və etdirilir.**

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi ilə "Vətən" müharibəsi iştirakçıları, qazilər və şəhid ailələrinin sosial müdafiəsi gücləndirilir. Dövlət başçısı tərəfindən imzalanan müvafiq Fərman və Sərəncamlara əsasən, əlillərə ödənilən pensiya və müavinətlərin məbləği davamlı olaraq artırılır, şəhid ailələri və qazilərin məşğulluq problemi aradan qaldırılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən indiyədək sosial dəstək paketi çərçivəsində 6000-dən artıq şəhid ailəsi üzvlərinin, qazinin məşğulluğu həll edilib.

Eyni zamanda, prezidentin 25 yanvar 2021-ci il sərəncamına əsasən, 2021-2025-ci illərdə şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 11 min mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. O cümlədən bu il ərzində 3 minədək mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara təqdim ediləcək.

Bundan başqa, müharibə əlillərinə minik avtomobillərinin verilməsi də uğurla davam edir. Onlara 2018-ci ildə 265 avtomobil, 2019-cu ildə 600 avtomobil, 2020-ci ildə 400 avtomobil verilib. 2021-ci ildə is 144 avtomobilin, ümumilikdə ötən dövrdə 7350-dək avtomobilin müharibə əlillərinə təqdim olunub.

"Prezident bütün çıxışları zamanı qazilərə və şəhid ailələrinə həssaslıqla yanaşılmasını xüsusən tələb edir" deyən iqtisadçı-ekspert Fuad İbrahimov "Şərq"ə bildirib ki, dünyanın böhranla qarşılaşdığı bir zamanda dövlətimizin həssas kateqoriyadan olan şəxslər üçün maliyyə ayırması və sosial yönümlü işlər görməsi təqdirəlayiqdir: "Qazilərimizə və şəhid ailələrinə xüsusi qayğı göstərilir. Onların hər biri iş yerləri, avtomobil və mənzillərlə təmin edilirlər. Prezidentimizin imzaladığı sərəncamlara əsasən büdcədən həmin kateqoriyadan olan insanlar üçün hər il vəsait ayrılır. Ən azından bu görülən işləri Ermənistanla müqayisə etsək, görərik ki, dövlətimiz qazilərimizin rifahını yaxşılaşdırmaq üçün əlindən gələni edir. Düzdür, arada xoşagəlməz hadisələr və məmur özbaşınalıqlarına rast gəlinir. Lakin hökumətin gördüyü işlər dəyərləndirilməlidir. Prezidentimiz hər zaman vurğulayıb ki, müraciət edən qazilərimizə son dərəcədə həssaslıq və səbrlə yanaşmaq lazımdır. Ola bilsin ki, müraciət edən şəxsin heç bir hüquqi əsası olmasın, amma ona prosesi çərçivəli şəkildə izah etmək lazımdır. "YAŞAT" Fondunun təşəbbüsü ilə edilən yardımları da vurğulamaq lazımdır. Qazilərimizin müalicələrinin dövlət tərəfindən nəzarətdə saxlanması və aparılması konkret olaraq göz önündədir. Növbəti illərdə də demək olar ki, bizim bütün büdcə layihələrimizdə qazilərin xüsusi yeri olacaq".

**Nihat Müzəffər**

# "Müharibə planlaşdırılmır"

## Şair Ramaldanov: "Bu, normal məqsədlər fonunda aparılan atəşlərdir"



**Azərbaycan Ordusunun Quru Qoşunlarının raket və artilleriya bölmələrində atəş tapşırıqları yerinə yetirilib. Təlimlər 2022-ci ilin döyüş hazırlığı planına uyğun olaraq baş tutub. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, plana əsasən, atəş dəstəyi həyata keçirəcək bölmələr daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq, atəş mövqelərini tutublar.**

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə şərti düşmən hədəflərinin aşkar olunaraq, sərrast atəşlə məhv edilməsi tapşırıqları icra edilib. Təlimin keçirilməsində əsas məqsəd raket və artilleriya bölmələrində komandirlərin idarəetmə vərdişlərinin təkmilləşdirilməsi, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasıdır. Həmçinin döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması və digər qoşun növləri ilə qarşılıqlı əlaqənin inkişaf etdirilməsidir.

**Hərbi təlimlərin keçirilməsi barədə fikirlərini "Şərq"lə bölüşən ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirib ki, Azərbaycan Ordusunda döyüş hazırlığı tərtib olunmuş plan üzrə həyata keçirilir:**

"Hər il olduğu kimi qarşıdakı məqsədlərə nail oluruq. Quru Qoşunlarının raket və artilleriya bölmələrinin atəş hazırlığı da böyük proqramın tərkib hissəsidir. Raket və artilleriyanı hər zaman "müharibənin Allahı" adlandırırlar. Əlbəttə, belə bir böyük vəzifəni icra edən Silahlı Qüvvələrin döyüş hazırlığı daim yüksəlməlidir.

Təlimlər orduda hər hansı antiterror əməliyyatları ilə bağlı təşkil olunmur, müharibə planlaşdırılmır. Bu, normal məqsədlər fonunda aparılan atəşlərdir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri istənilən antiterror əməliyyatı keçirməyə hazırdır. Məhz Vətən müharibəsində raket və artilleriya bölmələrinin qəhrəmanlığı, professionallığı və bacarığının şahidi olduq.

Ordumuz düşməni darmadağın edərək, çox böyük işlər gördü, mənfur erməniləri məhv etməyə nail oldu. Nəticədə xüsusi təyinatlılar kimi digər bölmələrin də irəliləməsinə imkan yaratdı".

**Sücayət Mehti**



# Türkiyənin dəniz ticarəti sahəsində böyük təcrübəsi var

## Bu imkandan yararlanmaq faydalıdır, amma yerli mütəxəssislərin hazırlanmasına da diqqət yetirilməlidir

**Türkiyənin "Albayrak Holding" şirkətlər qrupu ilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı arasında Bakıda liman terminallarının idarə edilməsinə dair imzalanmış saziş yükdaşımaların inkişafı və axınını sürətləndirəcək. Bu barədə Trend-ə özəl müsahibəsində "Albayrak Holding"in rəhbəri Mehmet Albayrak deyib.**

Onun sözlərinə görə, "Albayrak" əldə olunan razılaşma çərçivəsində onun icrasını sürətləndirmək üçün lazımi səyləri göstərəcək. "Biz Bakı limanının regionumuzdakı rolunu, eləcə də onun logistik imkanlarını artırmağı hədəfləyirik. Qvineya, Somali, Trabzon limanlarını idarə edirik. Peşəkar kadrlarımız var. Mütəxəssislərimizin Bakı limanına cəlb edilməsi Azərbaycanda ilk dövlət-özəl tərəfdaşlıq çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığa zəmin yaradacaq. Biz əlimizdən gələni edəcəyik ki, qısa müddətdə Bakı limanı qovşağa çevrilsin", - deyə o bildirib. Bundan əlavə, Xəzər regionu ölkələrinin yüklərin daşınmasına olan tələbatını ödəmək üçün digər növ yüklərin daşınması üçün infrastrukturun genişləndirilməsi nəzərdə tutulur: "2-3 ildən sonra Bakı limanında bu yük axını xeyli artacaq. Gələcəkdə yeni müqavilələr imzalamağı səbirsizliklə gözləyirik". O, həmçinin qeyd edib ki, Bakı limanı ilə əməkdaşlıq Azərbaycanda iqtisadi əməkdaşlığın daha da inkişafı üçün əsasdır: "Əminik ki, bizim sərmayələrimiz Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin, eləcə də yaxşı kənd təsərrüfatı potensialı olan digər rayonların bərpası üçün də faydalı olacaqdır".

**İqtisadçı Əkrəm Həsənov "Şərq"ə açıqlamasında bildirdi ki, qardaş Türkiyə dəniz ticarəti sahəsində böyük təcrübəyə malikdir:**

- Bu təcrübə əsrlərə dayanır. Hələ Osmanlı dövründə Anadolu dəniz ticarəti sahəsində xeyli inkişaf etmişdi, dünya ölkələri ilə yükdaşımalar həyata keçirilirdi. Məlum məsələdir ki, Türkiyənin dəniz ticarəti sahəsində böyük təcrübəsi var və bu təcrübədən Azərbaycanda da istifadə edilərsə, əlbəttə, müsbət irəliləyişə nail olunacaq. Amma bunu da deməliyəm ki, Azərbaycanın özünün də limanların idarəedilməsi, logistika sahəsində mütəxəssisləri var. Hər nə qədər olsa da, sovet dövründə Bakı limanları ilə yük də daşınıb, sərnişin də. Son dönəmlərə belə bir tendensiya yaranıb, xarici şirkətlərin ölkəyə cəlb edilməsi, bu, yaxşıdır. Elə sahələr var ki, qabaqcıl təcrübə öyrənilməli, mütəxəssislər cəlb edilməlidir. Amma daha yaxşı olar ki, yerli mütəxəssislərimiz hazırlansın. Azərbaycan öz mütəxəssislərini xarici ölkələrə təcrübə toplamağa göndərir, əməkdaşlığın sirlərini öyrənirlər. Bu cür yerli kardlardan istifadə edilməlidir. Kimsə Türkiyənin təcrübəsini dana bilməz. Lakin özümüz də mütəxəssis yetişdirməliyik.

**Ə.Həsənov qeyd etdi ki, Bakı dəniz limanı - Azərbaycanın dəniz qovşağı həcmcə elə də böyük deyil. Buradan böyük gəlir əldə ediləcəyini söyləmək çətindir. Amma yenə də, inkişafa xidmət edəcək əməkdaşlıq alqışlanmalıdır:**

- Bakı limanı əsasən Xəzər regionu ölkələri ilə birbaşa əməkdaşlıq edir, qarşılıqlı surətdə yükdaşımalar həyata keçirilir. Mümkündür ki, xarici şirkətlər sayəsində, məsələn, Qara dəniz regionu ilə də əməkdaşlıq genişlənsin. Qara dənizə birbaşa çıxış olmasa da, ikinci dövlətlə əlaqələr vasitəsilə üçüncü dövlətlərin limanlarına çıxış imkanları əldə edilsin. Əlbəttə, bu, iqtisadiyyatımız üçün, logistika sahəsində inkişaf üçün önəmlidir.

**Məlahət Rzayeva**

# Məmurların rəqsi...

## Seymur Verdizadə: ”Yaxşı nümunəni təbliğ etmək lazımdır”



**Bu günlərdə Tərtər rayonunda İkinci Qarabağ savaşının qazisi Elnur Salahovun toy mərasimi keçirilib. Məclisdə rayonun icra başçısı Müstəqim Məmmədov da iştirak edib. M.Məmmədov çıxışı zamanı qazimizi şad günü münasibətilə təbrik edib, xoş arzularını çatdırıb. Bundan sonra M.Məmmədov qazilərlə birgə vətənpərvər mahnı sədaları altında rəqs edib.**

Ümumiyyətlə, son vaxtlar məmurlar arasında rəqs etmək sanki dəb halını alıb.

Təbii ki, təqdirəlayiqdir. Hər hansı uşaq evində böyüyən və ya vətən yolunda sağlamlığını itirən şəxslərin şad günündə onların yanında olmaq, xoşbəxt anlarını bölüşmək müsbət addımdır. Lakin həmin vəzifəli şəxslərin ətrafındakı bəzi insanlar bu davranışları qədərindən çox, lazımsız şəkildə böyüdürlər. Nəticədə apardıqları təbliğat bumeranq effekt verir.
Halbuki, bəlkə də məmurların el şənliklərində iştirakı, qonaqlarla oynaması səmimiyyətdən, açıqürəklilikdən irəli gəlir.

Qeyd edək ki, ötən həftə analoji xəbər gündəmə çevrildi. Təhsil naziri Emin Əmrullayev internat məzunlarının toyunda iştirak edib, rəqsi ilə gənclərin sevincinə şərik olub.

***"Lakin bunu boğazdan yuxarı təriflə, əttökən sözlərlə edib, insanları iyrəndirmək olmaz"***

**Məsələyə münasibət bildirən Jurnalist Araşdırmaları Mərkəzinin rəhbəri, ”Yenisabah.az” saytının baş redaktoru Seymur Verdizadə ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycanda məmurlarla sıravi vətəndaşlar arasında qalın sədd var:**

”Xüsusilə 44 günlük Vətən müharibəsindən əvvəl hansısa yüksək rütbəli məmurun qəbuluna düşmək müşkül iş idi. Bəzi nazirlər, komitə sədrləri, digər məsul vəzifə sahibləri xalqa "üstdən aşağı baxırdı". Həmçinin onlarla rəiyyət kimi davranırdılar.

Yəqin əksəriyyət razılaşar ki, Vətən savaşı Azərbaycanda bir çox istiqamətlərdə olduğu kimi məmurların münasibətini də dəyişdi. Ölkə başçısının tələbi ilə vəzifəli şəxslər xalqla daha səmimi davranıb, onların problemləri ilə yaxından maraqlanmağa başladılar.

Əvvəlki illərdən fərqli olaraq, indi nazirləri, icra başçılarını xalqın xeyir-şərində tez-tez görmək mümkündür.

Təhsil naziri E.Əmrullayevin və Tərtər icra başçısının sadə vətəndaşların toyunda ürəkdən iştirak etmələrini, hətta qol qaldırıb, oynamalarını yüksək qiymətləndirir və alqışlayıram. Həmin funksionerlərin tabeliyində çalışan şəxslərin bunu təbliğat vasitəsinə çevirməsində qeyri-adi, faciəvi heç nə yoxdur. Bir şərtlə ki, gərək əndazəni aşmasınlar. Nazir, yaxud icra başçısı tabeliyində olan adamlara sosial şəbəkələrdə "düşük-düşük" status yazıb, onu tərifləmələrini söyləmir. Yaxşı nümunəni təbliğ etmək lazımdır. Lakin bunu boğazdan yuxarı təriflə, əttökən sözlərlə edib, insanları iyrəndirmək olmaz”.

**Sücayət Mehti**



**Bu günə qədər Azərbaycanda meymunçiçəyi virusuyla əlaqədar iki testdən istifadə edilib.**

**Bu barədə Səhiyyə Nazirliyindən bildirilib. Məlumatda qeyd edilir ki, müraciət edənlərdən test nümunələri götürülərək Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzinə göndərilib.**

Hər iki şəxsin test nəticəsi neqativdir. Sevindirici haldır ki, bu gün ölkədə meymunçiçəyinə yoluxma halı qeydə alınmayıb.

# Meymunçiçəyi hələ Azərbaycana "ayaq açmayıb"

## Adil Qeybulla: “Xəstəliyi ayaq üstündə keçirənlərin və qeydiyyata alınmayanların olması ehtimalı da var”

Artıq ölkəmizdə də meymunçiçəyi ilə bağlı müraciət edənlərin olması əhali arasında narahatlığa səbəb olub. Əhali arasında meymunçiçəyinin Azərbaycana da ”ayaq açması”, lakin təşvişə yol verməmək üçün məlumatların gizlədilməsi şayiəsi dolaşır.

**İddiaların əsassız olduğunu deyən professor, tibb elmləri doktoru Adil Qeybulla ”Şərq”ə bildirib ki, hansısa xəstənin dövlət tərəfindən gizlədilməsi inandırıcı deyil:** ”Əgər Səhiyyə Nazirliyi və rəsmi qurumlar məsələni təsdiqləmirsə, biz heç nəyin əsasında bu halın varlığını deyə bilmərik. Bu virusa heç bir özəl klinikada və xəstəxanada rast gəlməmişik. Xəstəliyi ayaq üstündə keçirənlərin və qeydiyyata alınmayanların olması ehtimalı da var. Amma inanmıram ki, xəstəlik olsun, onu qeydiyyata alsınlar və gizlətsinlər”.

**Nihat Müzəffər**

---

# Tünzalə Ağayeva: "İş adamları tələbələrim olub"



**”Mənim uşaqlığımın ziyalı insanları valideynlərim və müəllimlərim idi. Uşaq ola-ola mənə yaşıdlarımla söhbət etmək maraqlı deyildi. Yaxşı sinif yoldaşlarım var idi.** Başa düşürdüm ki, mənə yaşca böyük olan insanların söhbətləri maraqlıdır. Əvvəl çəkinirdim mahnılarımdan, sonra gördüm insanlara xoşdur. Hamı təəccüblənirdi. Sinifdə ad günləri, yığıncaqlar olanda oxuyurdum. Anam ad günlərində çox oturmağa qoymurdu. Bir saatın yarımını da konsert verirdim”.

**Bu sözləri Xalq artisti Tünzalə Ağayeva ”Zaurla Günaydın” proqramında deyib. Müğənni müəllim çalışdığı illəri xatırlayıb. Ağayeva bildirib ki, hazırda tanınmış iş adamları onun tələbələri olublar:**

”Tovuzda müəllim işləyirdim. 8 il çalışdım. Qiyabi oxuyurdum, tələbə idi. İndi qarşıma tələbələrim çıxır. Onlar indi iş adamı, həyatını qurmuş, ciddi işdə çalışanlardır. Elə peşələrin adını çəkirlər ki... O uşaqların intelekində balaca olsa da, əməyim olub. Səhnədən sonra yaxınlaşıb ”müəllim” deməkləri başqa hissdir”.



# “Onlar haqda o sözü deyə bilməyəcəm"

Elnarə Namiq Qaraçuxurlu və Pərviz Bülbüləni meyxanaçı hesab etmir

**”Heç vaxt meyxanaçı ilə duet oxumazdım. Meyxana sənətinə böyük hörmətim var.**

Söhbət əsl meyxanadan, əruz vəznində olandan, sinədəftər meyxanaçılardan gedir. "Təki mahnı olsun xatirinə" deyilən meyxanalar yox. Məsələn, Ağasəlim Çıldaq, Kərim, Ağamirzə...". Bu sözləri müğənni Elnarə Xəlilova "Şourum" proqramında deyib. Sənətçi heç vaxt meyxanaçılarla duet oxumayacağını açıqlayıb.

**Elnarə eyni zamanda Namiq Qaraçuxurlu və Pərviz Bülbüləni meyxanaçı hesab etmədiyini söyləyib:**

”Onları son on ildə mahnıda tanımışam, görmüşəm. Onlar haqda o sözü deyə bilməyəcəm. Əsl meyxana deyənlərin yanındayam. O sənətə pərəstiş edirəm”.

# İntihar çıxış yolu deyil

## İnsanlar çətinliklərlə üzləşəndə özlərində güc tapmır

**”Bezmişəm, yorulmuşam, tükənmişəm”, ”Yaşamağa dəyməz ”. Bəzən sosial şəbəkələrdə belə status yazan şəxslərlə qarşılaşırıq.**

Mütəxəssislərin fikrincə, bu, intihara meylin ilkin mərhələsində müşahidə edilir. Psixologiyası zərər görən insanlar çıxış yolunu yanlış da olsa, intiharda görürlər. Xırdalan şəhəri, Mədəniyyət Evinin yaxınlığındakı parkda 1985-ci il təvəllüdlü Vəli Əliyev parkda canına qəsd edib. Goranboyda da müəmmalı intihar hadisəsi yaşanıb. Kənd sakini 35 yaşlı Aynur Nəsibova, iki uşaq anası özünü asıb.

**Faktlar da onu göstərir ki, intihar halları artır. Səbəbləri isə psixoloq Əfsanə Rüstəmova ”Şərq”ə açıqlayıb. O bildirib ki, insanlar mövcud çətinliyin heç vaxt bitməyəcəyi əndişəsi ilə intiharı köklü çarə kimi görürlər:** ”Ruhsal dinamika sabit deyil və təsirlənəndir. Əslində, hər şeyin yolunda getməsi və heç nəyin yolunda getməməsi insan üçün eyni qapını açırsa, yəni intiharla



***"Kimisi özünü atdığı 17-ci mərtəbənin 15-ci mərtəbəsində, kimisi isə ayaqları stola çatmayanda... Bəziləri fərqinə varanda isə sağ qalma ehtimallarının olmadığını anlayaraq intihardan çox həyəcandan dünyalarını dəyişirlər"***

nəticələnirsə, deməli, ortada doğru olmayan nələrsə var. Ölmək - var olanı bitirmək deyil, bütünlüklə sonlandırmaqdır. Lakin insanlar fərqinə gec varır. İntihar cəhdi ölümlə nəticələnməyən hər kəsdən bu etirafı eşidə bilərsiniz. Hamı son anda peşmanlıq keçirir; kimisi özünü atdığı 17-ci mərtəbənin 15-ci mərtəbəsində, kimisi isə ayaqları stola çatmayanda... Bəziləri fərqinə varanda isə sağ qalma ehtimallarının olmadığını anlayaraq intihardan çox həyəcandan dünyalarını dəyişirlər”.

**Psixoloqun qənaətincə, bəzən elə çətinliklər yaşanır ki, insan özündə onunla baş edəcək güc tapmır:** ”Problem müəyyən bir çətinlikdə intiharın bir seçim-çarə kimi ağla gəlməsindədir. İnsanlar həyatlarında hər şeyi ”stok” etdikləri kimi çarələri də ”stoklamalıdırlar”. Analoji bir çarəni də mən sizə xatırladım: Sonraya saxlamaq. Qərar verməkdə çətinlik çəkdiyimiz, həlli mümkünsüz kimi görünən, çıxılmaz bir vəziyyətdə olduğumuzu hiss edəndə bu vəziyyəti ön planda saxlamaqla əksinə, çarədən uzaqlaşırıq. Özümüzdə belə ”təxirəsalma vərdişlərini” yarada bilsək, hər çətinlikdən qalib çıxarıq. Yetər ki, həyat bizə yaşamaq üçün möhlət versin”.

**Aygün Tahir**

# Professor əndişəyə əsas görmür

**Son həftələrdə həm dünyanın müxtəlif yerlərində, həm də Azərbaycanda yoluxmaların sayı artıb. Ümumdünya Səhiyyə Təşkilatının ( ÜST ) hesabatına görə, ötən həftə dünyada 5,7 milyon COVID-19 hadisəsi aşkar edilib, yoluxmaların sayı isə əvvəlki həftə ilə müqayisədə 6 faiz artıb. Bir çox ölkələrdə bu artım ”Omikron”un BA.4 və BA.5 adlı alt variantlarının yayılması ilə əlaqədardır. Qlobal ekspertlər pandemiyanın yeni dalğasının yaşana biləcəyini bildirir.**



## Koronavirusun yeni ştammı pandemiyanın təkrar alovlanmasına səbəb ola bilməz

Azərbaycanda günlük yoluxmanın sayı uzun müddətdən sonra üçrəqəmli olub. Ölkəmizin səhiyyə qurumları vətəndaşlarımıza qapalı məkanlarda tibbi maskaların taxılmasını, sosial məsafənin gözlənilməsini, təmasların azaldılmasını, respirator gigiyena qaydalarına əməl olunmasını təkidlə tövsiyə edir.

Tendensiya davam edərsə, payızda bütün dünyada epidemiya dalğasının cilovlana biləcəyi proqnozlaşdırılır.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan tibb elmləri doktoru, professor Musa Qəniyev bildirib ki, ”Omikron”un BA.4 və BA.5 ştamları pandemiyanın təkrar alovlanmasına səbəb ola bilməz:**

”Son günlər BA.4 və BA.5 ştamına yoluxmada artım var. Bunu ”bəziləri” COVİD - 19 pandemiyasının 7-ci dalğası kimi dəyərləndirir. Madridin regional Səhiyyə naziri Antonio Sapatero, ”Omikron”un bu variasiyasını, hətta COVİD-22 adlandırır. Bu ştamların kontagiozluğu çox yüksəkdir və formalaşmış immunitet onları tanımadığı iddia olunur. Odur ki, yeni vaksinlər yaradılmalı, insanlar 4-cü, 5-ci və s. dəfə peyvənd olunmalı, qadağalar qoyulmalıdır və s. Əslində elmi təhlil bunun əksini sübut edir.

Pandemik alovlanmaya səbəb olan hər bir virus infeksiyasının gedişi, ”mütləq təhlükəlilik həddi” sayılan 2 əsas parametrilə - yoluxduruculuq (Ro indeksi) və letallıq (ölüm törətmə) əmsalı ilə dəyərləndirilir. Sönməsi 4 fəsli növbələşmə müddətilə dəyərləndirilən viral pandemiyaların başa çatmasının əsas şərti, məlum virusun dövrü mutasiya edərək, xələfləri sələfindən yoluxduruculuq qabiliyyətinin artması fonunda, letallıq əmsalı sıfırlanan mutantının əmələ gəlməsidir. Bu halda S-spayka zülalında baş verən mutasiya səbəbindən, yoluxma baş verənə qədər, yeni mutantı, formalaşan immunitet tanımaması tamamilə qanunauyğun bir haldır. Spayka zülalında mutasiya ona görə baş verir ki, virus immun sistemdən yayınaraq, hüceyrəyə daxil olsun və simbioz birgə yaşamaya təminat verəcək şəklə düşənə qədər, RNT-nin letallıq mutasiyasına məruz qalsın. Bu, təbiətin hakim ”birgə yaşam” qanunudur. Yeni mütləq haldır. Bütün pandemiyalar zamanı belə olub və belə də olacaqdır. Məsələn, herpes virusu, artıq demək olar ki, hamıda vardır və bizimlə simbioz yaşayır. Və ya zamanında öldürücü, hazırda isə, unudulmaqda olan Ebola virusu və s”.

**Professor ana virusun dövrü mutasiyasının nəyə görə qorxulu olmadığını açıqlayıb:** ”Çünki orqanizmin xüsusi immun hüceyrələri olan limfositlər onunla ilkin qarşılaşma (xəstələnmə və ya peyvənd olunma) zamanı, virusun sürət əksinin total subvahidi (örtük təbəqə, matriks, nukleoprotein sırası və spayka zülalı), gen yaddaşına həkk olan, spesifik antitellər (B yaddaş hüceyrələri) sintez edir. Bu hüceyrələr ”yaddaş kartını” demək olar ki, ömürlük, yəni insan dünyasını dəyişənədək saxlayır. BA.4 və BA.5 ştammını immun sistemin tanımaması dedikdə, burada immunitetin yalnız S-spayka zülalını tanımaması başa düşülməlidir, bütövlükdə virusu deyil. İmmunitet virusu total subvahid şəklində, yalnız hüceyrəona yoluxduqdan sonra tanıyır və onunla aktiv şəkildə mübarizə apararaq onu neytrallaşdırır. BA.4 və BA.5 ştammına yoluxma, hazırda ÜST-nin də etiraf etdiyi kimi adi soyuqlama kimi keçməlidir və keçir. Bu ştamların hətta hansısa bir ciddi narahatlığa səbəb olacağını düşünmək belə mənasızdır. Belə bir şey ola bilməz”.

Tibb elmləri doktorunun qənaətincə, istənilən viral infeksiyanın pandemiyası zamanı, kütləvi immunitetin formalaşmasının həlledici şərti, mütləq əhali qrupunun bu infeksiyaya yoluxması və ya peyvənd olunmadır. Odur ki, bəzi ölkələrdə COVİD-19-a yoluxmadakı hazırkı sıçrayışların, təbii faiz nisbətində yoluxma baş verənə qədər davam edəcəyi, mütləq və qaçılmazdır”.

**Aygün Tahir**

**Elan**

Mehdiyev Emin Oqtay oğluna verilmiş Qarabağ müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**

**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2015**



## İnsult, diabet, xərçəng...

### Həftədə 50 saat işləyən insanın psixikası pozulur

**Müxtəlif ölkələrin alimləri insanın həftədə neçə saat işə dözümlü olduğunu araşdırıb.**

Bakupost.az xəbər verir ki, Stenford universitetinin alimləri tədqiqatlarında insanın həftədə 40 saatdan artıq işləməsinin sağlamlıq üçün zərərli olduğunu sübut edib.

Belə ki, 45-50 saat işlədikdə insanın əmək məhsuldarlığı və psixi, fiziki sağlamlıq göstəriciləri aşağı düşür.

55 saatlıq iş isə ümumiyyətlə sıfıra endirir.

Amma elə işlər var ki, 40 saat da insan üçün çoxdur.

Avstaliya və İsveç dövləti həftəlik iş saatının 35-ə endirilməsi barədə düşünür.

Normadan artıq işləyən insanın psixikası pozulur, onda depressiya inkişaf edir. Gələcəkdə bu insult, infarkt, diabet, hətta xərçəng deməkdir. İnsanın işini nə dərəcədə sevməsi və işə ürəkli-ürəksiz, könüllü gedib-getməməsinin də önəmi böyükdür.

## İstilərə görə məktəblər bağlanıb

### İctimai tədbirlər ləğv edilib



**Böyük Britaniya sakinləri ölkənin bir sıra bölgələrində anomal istilərə hazırlaşır.**

"Report" xarici mətbuata istinadən xəbər verir ki, ölkədə yüksək temperatur - 39 dərəcəyə qədər isti gözlənilir.

Bu həftənin sonunda isə temperaturun 40 dərəcəyə çatacağı proqnozlaşdırılır.

Böyük Britaniya tarixində ilk dəfə istilər səbəbindən təhlükənin ən yüksək səviyyəsi - qırmızı xəbərdarlıq elan edilib.

Sakinlər mümkün qədər evdə qalmağa, həm şəxsi nəqliyyat, həm də qatarla səyahət etməkdən çəkinməyə çağırılıb.

Anomal istilər üzündən ölkənin bəzi bölgələrində, xüsusən də Nottinqhemşir və Hempşir qraflıqlarında məktəblər bağlanıb. Bundan əlavə, Lankaşirdə at yarışı, Berkşirdə isə parad kimi, müxtəlif ictimai tədbirlər ləğv edilib.









## Atası icazə vermədi, amma gizlin oxudu

### Parisdə doktorluq dərəcəsinə qədər yüksəldi

**Manisanın kənd məhəlləsində doğulan Sultan Çetinkaya Tahtacı oxumaq əzmi ilə hər kəsə örnək olub. Atasının bütün maneələrinə baxmayaraq, o, orta məktəbi gizli şəkildə bitirib. Universitet və magistr təhsilindən sonra Fransada doktorluq dissertasiyası müdafiə edib. İndi Parisdə yaşayan qadın başqalarına ümid olmaq üçün öz həyat hekayəsindən kitab yazıb.**

Havva-Ramazan Çetinkaya cütlüyünün 4 uşağından 3-cü olan Sultan Çetinkaya Tahtacı ibtidai məktəb təhsilindən sonra atasının icazə verməməsi ilə təhsil həyatına son qoyub.

Oxumaq sevgisi bitməyən Tahtacı atasından gizlin oxumağa qərar verib.

Orta məktəbə 17 yaşında yumurta və reyhan sataraq açıq təhsil yolu ilə başlayan Tahtacı böyük çətinliklərlə orta məktəbi bitirib və 23 yaşında məzun olub.

Oxumaq üçün evdən çıxıb Manisaya gedən Tahtacı yayda işlədiyi pomidor fabrikindən qazandığı pulla sinif otağına gedib.

Universitet imtahanında İstanbul Yıldız Texniki Universitetinin Türk Dili və Ədəbiyyatı Bölümünü qazanan Çetinkaya universitetin 3-cü kursunda Erasmus Layihəsi ilə Fransaya getməyə nail olub.

1 il təhsil aldıqdan sonra ölkəyə qayıdan Tahtacı bakalavr təhsilini, daha sonra isə fransız ədəbiyyatı üzrə magistratura pilləsini bitirib. Vəqf Universitetində müəllim kimi işə başlayan Tahtacı Sorbonna Universitetinin Böyük Məktəbi olan EPHE-dən doktoranturaya qəbul olunub.

6 ildən sonra doktoranturasını bitirən Tahtacı sərhədi aşaraq, "qızlar oxuya bilməz" deyənlərə meydan oxuyub. Yaşadığı Parisdə evləndiyi



Ayhanla həyatına başlayan Sultan Çetinkaya Tahtacı turistlərə Eyfel qülləsi ilə bağlı bələdçilik edib. Həyat hekayəsini danışan Sultan Çetinkaya Tahtacı ibtidai məktəb təhsili aldıqdan sonra 17 yaşına qədər atasına yalvardığını bildirib: "Məncə, uğur atamın üstündən keçməkdir".

Tahtacı universiteti bitirdikdən sonra atasının telefonla zəng edərək təbrik etdiyini və qürur duyduğunu bildirib. 39 yaşlı qadın indi başqaları üçün ümid olmaq istəyir.

Bunun üçün o, öz hekayəsindən danışdığı bir kitab yazıb. O, tezliklə "Məktəbsiz kənddən Sorbonnaya uğur hekayəsi" kitabını təqdim edəcək.

**Turan**

## Yenidən barışıb, evləndilər

### "Ömrümüz boyu daşıyacağımız üzüklərimizi bir-birimizə verdik"



**Hollivudun məşhur cütlüklərindən biri olan Cennifer Lopez və Ben Afflek Las-Veqasda evləniblər. Lopez açıqlamasında "Tam bizim istədiyimiz kimi oldu. Ömrümüz boyu daşıyacağımız üzüklərimizi bir-birimizə verdik" deyib.**

**Qeyd edək ki, nişanlanan, lakin sonradan ayrılan Cennifer Lopez və Ben Afflek illər sonra yenidən barışaraq Las-Veqasda evləniblər.**

**Lopez pərəstişkarları ilə paylaşdığı e-poçt və bloq yazısında Afflek ilə evli olduğunu təsdiqləyib.**

**Ulduz instaqramda fotosu ilə elan etdiyi evliliyi haqda bunları deyib: "Biz bunu bacardıq. Sevgi gözəldir. Və belə çıxır ki, sevgi səbirdir. 20 il dözdük".**

**Lopez sözünə belə davam edir: "Bu, tam istədiyimiz şey oldu. Biz gecə Veqasa uçduq, evlilik lisenziyası üçün digər cütlüklərlə sıraya düzüldük, dünyanın toy paytaxtında hamı ilə eyni səyahəti etdik". Təsəvvür edə biləcəyiniz ən yaxşı şahidlərlə, köhnə filmdən bir paltar və Benin şkafından bir gödəkçə ilə biz kiçik bir kilsədə bir-birimizə and içdik, bir-birimizə həyatımızın sonuna qədər taxacağımız üzüklər verdik".**

**Turan**

## Ayağından sinir köçürdülər

### Xəstənin gözü açıldı



**Rusiyanın Tomsk şəhərinin cərrahları gözünü itirmək təhlükəsində olan kişi xəstəni xilas ediblər.**

**Bakupost.az xəbər verir ki, beynində şiş əməliyyatından sonra kişinin üçlü siniri zədələnmişdi. Onun gözü bağlanmırdı, görmə sinirinin həssaslığı pozulmuşdu.**

**Kişinin gözü demək olar, görməni itirmişdi.**

**Tomskın Mikrocərrahiyyə institutunun cərrahı Andrey Baytinger xəstədə eyni vaxtda 2 əməliyyatı icra edib: göz qapağının açılmasını təmin edib, ayağından sinir götürərək üçlü siniri bərpa edib.**

**Oftalmoloq cərrah Yevgeniy Başnak isə yeni siniri göz almasınının sinirinə birləşdirib.**

**Əməliyyat uğurla bitib, bir neçə aydan sonra kişinin gözü bərpa olub.**





## Zəhərlənmə iddiası...

### Yazıçı Atatürkün ölüm sirrinin pərdəsini qaldırır






**Jurnalist-yazar Yaşar Gürsoy Türkiyə Cümhuriyyətinin qurucusu, Qazi Mustafa Kamal Paşa - Atatürkün ölüm səbəbi üzərindən sirr pərdəsini qaldırdığını düşünür. Ötən əsrdən günümüzədək Atatürkün ölüm səbəbi qara ciyər serrozu olaraq bilinirdi. Yaşar Gürsoy isə bu iddiaları bir kənara itələyərək Atatürkə sui-qəsd edildiyini, damarına vurulan bir iynə nəticəsində həyatını itirdiyini iddia edir və bunu sənədlərlə sübut etməyə hazır olduğunu deyir.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, Y.Gürsoy bu iddialarını "Atatürkün qatilləri də o doktor" kitabında açıqlayır. Yazar kitabında qeyd edir ki, Mustafa Kamal Paşa qara ciyər serrozundan ölməyib, nasist düşərgələrində vəhşicə təhqiqatlar aparan avstriyalı həkim Hans Eppinger tərəfindən zəhərlənərək öldürülüb. Yazar iddialarında arxiv sənədlərinə söykəndiyini də qeyd edir. Y.Gürsoyun kitabı, əslində dedektiv roman janrındadır. Lakin romanda Atatürkün bir nasist həkim tərəfindən damarına inyektor şpris vasitəsilə civə yeridilməsindən öldüyünün qeyd edilməsi tarixin axarını dəyişdirəcək miqyasda. Yazar qeyd edir ki, avstriyalı həkim uzun müddət nasistlərin əsir düşərgəsində insanlar üzərində alçaq təcrübələr keçib, tədqiqatlar aparıb. Mustafa Kamal Paşa xəstələndikdə dönəmin səhiyyə müstəşarı doktor Asım Arar və daxili işlər naziri Şükrü Kaya tərəfindən, bilikli, savadlı həkim kimi Türkiyəyə dəvət edilib və Atatürkün müalicəsiylə məşğul olub. Lakin yazar iddia edir ki, nasist həkim Atatürkün damarına hər dəfə kiçik miqdarda zəhər yeridirmiş. Bunu təsdiqləyəcək, təkzibolunmaz faktlar və sənədlər vardır. Nasist həkim qaydalara zidd olaraq hər dəfə Atatürkün yataq otağına təkbaşına daxil olurmuş. Və damarına civəli iynə vururmuş. O dönəmlərdə Rumıniya kraliçasının da serrozdan öldüyü bildirilmişdi. "Təsadüfə" bax ki, onun da ölüm yatağının başında məhz bu nasist həkim - doktor Eppinger dayanıb. Y.Gürsoy deyib ki, kitaba bu həqiqətləri daxil etməkdə məqsədi bir sui-qəsdin üzərini açmaqdır: "Eppingerin Atatürkün otağına təkcə daxil olması, başlı-başına böyük bir səhlənkarlıq və məsuliyyətsizlikdir. O, niyə otağa tək daxil olurdu, niyə buna izin verilirdi? Sirli olaylara baxıldığında Atatürkün həyatına sui-qəsd edildiyi şübhələri artır", deyən yazar iddialarını təsdiqləyən arxiv sənədlərinin olduğunu söyləyib.

**Məlahət Rzayeva**

## "Qırmızı həyəcan" elan olundu

### Avropada son günlərdə isti havadan mindən artıq insan ölüb




**Qızmar istilər Avropanı "qaynar qazan"a döndərib. Ən dəhşətlisi isə şiddətli istilərin insan ölümlərinə səbəb olmasıdır. "NTV.com.tr" xəbər verir ki, Avropada son günlərdə isti havadan mindən artıq insan ölüb.**

Böyük Britaniyada ölkə tarixində ilk dəfə şiddətli istilər səbəbilə fövqəladə vəziyyət - "qırmızı həyəcan", Fransada 15 bölgədə "qırmızı", 51 bölgə isə "narıncı təhlükə" elan edilib. Belçika və Almaniyada rekord temperatur yüksəkliyi qeydə alınıb. Ümumilikdə Avropada isti hava səbəbiylə ölənlərin sayı mini ötür. Fövqəladə vəziyyətlə bağlı məktəblərin vaxtından əvvəl tətilə çıxacağı, xəstəxanalara qeydiyyatların ləğv ediləcəyi gözlənilir. Metereoloqlar şiddətli istilərin qarşıdakı 2 gündə davam edəcəyini bildirir və əhalini ehtiyatlı olmağa, istilərdən qorunmağa çağırır. Temperaturun 40 dərəcəyə yüksələcəyi proqnozlaşdırılır. İtaliya hökuməti də həkim briqadalarını və xilasetmə qruplarını hazır vəziyyətə gətirib, vətəndaşlara məcbur qalmadıqca evdən çıxmamağı tövsiyə edib. Qızmar istilərin sabah Almaniyaya çatacağı gözlənilir. Ölkənin cənubunda və qərbində havanın temperaturunun 41 dərəcəyədək yüksələcəyi qeyd edilir. Mütəxəssislər insan tələfatı ilə bağlı xəbərdarlıq edib. BBC-nin xəbərinə görə, İspaniya və Portuqaliyada insan tələfatı mindən artıqdır. İtaliya, Fransa, Belçika və Niderland isə tələfatlar barədə məlumat vermir.

**Məlahət**

## Kartların sırasını əzbərlədi

### İnanılmaz yaddaşı olan kişi dünya rekordunu qırdı



**ABŞ-ın Florida ştatının Mayami şəhərində inanılmaz yaddaşa malik insan Ginnesin rekordlar kitabına düşüb.**

Milli.Az bildirir ki, bu barədə UPI xəbər agentliyi məlumat yayıb. Nelson Dellis su altında olarkən qarışdırılmış oyun kartlarının sırasını əzbərlədi. Bundan sonra o, sahilə çıxdı və eyni qaydada başqa bir kartları düzdü. Bunun üçün amerikalı iki dəqiqə 22,53 saniyə vaxt sərf edib. Dellis dünyanın ən sürətli su altında kartların düzülüşünü əzbərləyən şəxs kimi tanınıb. Bundan əvvəlki rekord hindistanlı Sancit Şarmaya məxsusdur. 2019-cu ildə ona su altında kartları yadda saxlamaq üç dəqiqə 42,5 saniyə çəkdi.

Dellis, ən çətin şeyin kifayət qədər uzun müddət su altında nəfəs tutmağı öyrənmək olduğunu söylədi. "Bunu əldə etmək üçün çox şey öyrənməli oldum", - o dedi.